UDC: 1 (091)
LBC: 87.3(0); 88.1; 60.03
MJ № 252
10.33864/2617-751X.2025.v8.i1.23-53

The Psychology of Literary Relations Between Mirza Shafi Vazeh and Friedrich Von Bodenstedt: from Imitation to Plagiarism

Zaur Rashidov*

Abstract. One of the many Eastern poets who became famous in the West in the 19th century is the "Sage from Ganja" Mirza Shafi Vazeh. His cheerful and song-like poems were translated into German by his student Friedrich von Bodenstedt. The songs quickly gained popularity in Germany. The co-authors of this great cultural event of the 50s of the 19th century, the poet Mirza Shafi and the translator F.Bodenstedt, managed to harmoniously complement each other. The work of F.Bodenstedt "Songs of Mirza Shafi" appeared as a unique result of the cultural unification of the East and the West. In the 70s of the 19th century, confessions written by F.Bodenstedt in the appendix to the work "From the Accounts of Mirza Shafi" led to the rupture of this poetic unity. The issue of plagiarism, which is usually emphasized in our scientific community, when it comes to the literary relationship between Mirza Shafi and F.Bodenstedt, has gained relevance after these confessions. The plagiarism committed by F.Bodenstedt in relation to Mirza Shafi has largely obscured the true essence of the cultural phenomenon that arose, as a result of the fusion of Eastern poetry and Western thinking. It should be noted that indirect acts of plagiarism by F.Bodenstedt were reflected in his memories about Mirza Shafi. He absorbs the colorful oriental features of Mirza Shafi, which could arouse the interest of a German reader tired of the revolutions of the 40s. The German translator masterfully imitates the vivid and emotional image of the poet. During conversations, he exploits the poet intellectually, involving him in "psychological games". F.Bodenstedt tried to translate into German the

* Doctor of Philosophy in Philosophy (Ph.D),
ANAS, Institute of Philosophy and Sociology, BSU, Social Sciences and Psychology; Baku Azerbaijan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

To cite this article: Rashidov, Z. [2025]. The Psychology of Literary Relations Between Mirza Shafi Vazeh and Friedrich Von Bodenstedt: from İmitation to Plagiarism. *"Metafizika" journal, 8*(1), pp.23-53.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.23-53

Article history:
Received: 16.10.2024
Accepted: 03.03.2025

Copyright: © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

impromptu poems of Mirza Shafi in the Azerbaijani and Persian languages to the extent that he understood the essence of what was said in these passages. He sought to gain popularity in the competitive German scientific community through his translations on Oriental subjects. Despite the fact that, F.Bodenstedt published the songs in his own name his confessions were not successful, because he could not separate the oriental spirit of Mirza Shafi from the songs. The confessions which were supposed to make him the sole author of the "Songs of Mirza Shafi", caused serious doubts and sharp criticism in the German scientific community. Along with F.Bodenstedt, who gradually lost the trust he had won in the eyes of his readers, the Azerbaijani poet Mirza Shafi also began to be forgotten. As a result of the steady change of poetic tastes in German societies, the process of oblivion is further accelerated. Mirza Shafi, forgotten in the West since the beginning of the 20th century, became famous in Azerbaijan in the same century and has continued his path independently ever since.

Keywords: Mirza Shafi, East, F.Bodenstedt, West, culture, songs, poetry, psychological manipulation, imitation, plagiarism, German guise, oblivion, succession

УДК: 1 (091)
ББК: 87.3(0); 88.1; 60.03
MJ № 252
10.33864/2617-751X.2025.v8.i1.23-53

Психология Литературных Отношений Мирзы Шафи Вазеха и Фридриха Боденштедта: от Подражания к Плагиату

Заур Рашидов*

Абстракт. Одним из многих восточных поэтов, прославившихся на Западе в XIX веке, является Гянджинский Мудрец Мирза Шафи Вазех. Его веселые стихи, напоминающие песни, были переведены на немецкий язык его учеником Фридрихом Боденштедтом. Песни быстро завоевали популярность в Германии. Соавторам этого великого культурного события 50-х годов XIX века, поэту Мирза Шафи и переводчику Ф.Боденштедту удалось гармонично дополнить друг друга. Произведение Ф.Боденштедта «Песни Мирзы Шафи» появилось как уникальнейший результат культурного объединения Востока и Запада. В 70-х годах XIX века признания, написанные Ф.Боденштедтом в приложении к произведению «Из наследия Мирзы Шафи», привели к разрыву этого поэтического единства. Вопрос о плагиате, который обычно подчеркивается в нашем научном сообществе, когда речь идет о литературных отношениях Мирзы Шафи и Ф.Боденштедта, приобрел актуальность после этих признаний. Плагиат, допущенный Ф.Боденштедтом по отношению к Мирзе Шафи, в значительной степени затмил истинную сущность культурного феномена, возникшего в результате слияния восточной поэзии и западного мышления. Следует отметить что, опосредованные акты плагиата Ф.Боденштедта нашли отражения в его воспоминаниях о Мирзе Шафи. Он впитывает красочные восточные черты Мирзы Шафи, которые способные вызвать интерес у

---

* Доктор философии по философии,
НАНА, Институт Философии и Социологии, БГУ, Социальные науки и Психология; Баку, Азербайджан
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

Цитировать статью: Рашидов, З. [2025]. Психология Литературных Отношений Мирзы Шафи Вазеха и Фридриха Боденштедта: от Подражания к Плагиату. *Журнал «Metafizika»*, *8*(1), с.23-53.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.23-53

История статьи:
Статья поступила в редакцию: 16.10.2024
Отправлена на доработку: 04.12.2024
Принята для печати: 03.03.2025

Copyright: © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

усталого от революций 40-х годов немецкого читателя. Немецкий переводчик мастерски подражает яркому и эмоциональному образу поэта. Во время бесед он эксплуатирует поэта в интеллектуальном плане, вовлекая его в «психологические игры». Ф.Боденштедт пытался переводить на немецкий язык сочиненные экспромтом стихи Мирзы Шафи на азербайджанском и персидском языках в той мере, в какой он понимал суть сказанных в этих отрывках. Он стремился завоевать популярность в конкурентном немецком научном сообществе благодаря своим переводам на восточную тематику. Несмотря на то что, Ф.Боденштедт опубликовал песни от своего имени, его признания не увенчались успехом, поскольку он не смог отделить от песен восточный дух Мирзы Шафи. Признания, которые должны были сделать его единственным автором «Песен Мирзы Шафи», вызвали серьезные сомнения и резкую критику в немецкой научной среде. Вместе с Ф.Боденштедтом, постепенно утратившим доверие, завоеванное в глазах читателей, начинает забываться и азербайджанский поэт Мирза Шафи. В результате неуклонной смены поэтических вкусов в германских обществах, процесс забвения ещё больше ускоряется. Мирза Шафи, забытый на Западе с начала XX века, в том же столетии прославился в Азербайджане и с тех пор продолжает свой путь самостоятельно.

Ключевые слова: Мирза Шафи, Восток, Ф.Боденштедт, Запад, культура, песни, поэзия, психологическая манипуляция, подражание, плагиат, немецкое обличье, забвение, преемственность

UOT: 1 (091)
KBT: 87.3(0); 88.1; 60.03
MJ № 252
10.33864/2617-751X.2025.v8.i1.23-53

Mirzə Şəfi Vazeh və Fridrix Bodenştedt Ədəbi Əlaqələrinin Psixologiyası: Təqliddən Plagiata Doğru

Zaur Rəşidov*

Abstrakt. XIX əsrdə Qərbdə məşhurlaşan çoxsaylı Şərq şairlərindən biri də Gəncə müdriki Mirzə Şəfi Vazehdir. Onun nəğmələri xatırladan şux şerlərini alman dilinə tərcümə edərək dillər əzbəri olmasına tələbəsi Fridrix Bodenştedt səbəb olmuşdur. XIX əsrin 50-ci illərindəki bu böyük mədəni hadisənin birgə memarları olan şair Mirzə Şəfi və tərcüməçi F.Bodenştedt bir-birini üzvi şəkildə tamamlaya bilmişdirlər. F.Bodenştedtin "Mirzə Şəfinin nəğmələri" adlı əsəri Şərq və Qərb vəhdətinin uğurlu nəticəsi olaraq meydana çıxmışdır. XIX əsrin 70-ci illərində F.Bodenştedtin "Mirzə Şəfinin irsindən" əsərinin əlavəsində qələmə aldığı etiraflar bu vəhdətin pozulmasına səbəb olmuşdur. Elmi ictimaiyyətimizdə Mirzə Şəfi və F.Bodenştedt ədəbi əlaqələrindən söz düşərkən bir qayda olaraq vurğulanan plagiat məsələsi, bəlli etiraflardan sonra aktuallıq qazanmışdır. F.Bodenştedtin Mirzə Şəfiyə münasibətdə yol verdiyi plagiat, Şərq poeziyası və Qərb təfəkkürünün qovuşmasından hasil olan mədəni hadisənin gerçək mahiyyətinə böyük ölçüdə kölgə salmışdır. F.Bodenştedtin bilvasitə plagiat aktı onun Mirzə Şəfi ilə bağlı əsərlərindəki xatirələrdə də öz əksini tapır. O, Mirzə Şəfinin XIX əsrin 40-cı illərində inqilablardan yorulmuş alman oxucusunda maraq doğuracaq rəngarəng Şərq xüsusiyyətlərini mənimsəyir. Onun parlaq və emosional obrazını böyük məhartlə təqlid edir. Söhbətləri zamanı Mirzə Şəfini "psixoloji oyunlara" cəlb edərək intellektual planda istismar edir. Onun Azərbaycan və fars dillərində bədahətən söylədiyi nəğmələri anlaya bildiyi səviyyədə alman dilinə tərcümə etməyə çalışır. Şərq mövzusundan bəhs edən tərcümələri lə rəqabətli alman

* Fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu, BDU, Sosial elmlər və Psixologiya fakültəsi; Bakı, Azərbaycan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

Məqaləyə istinad: Rəşidov, Z. [2025] Mirzə Şəfi Vazeh və Fridrix Bodenştedt Ədəbi Əlaqələrinin Psixologiyası: Təqliddən Plagiata Doğru. *"Metafizika" jurnalı, 8*(1), səh.23-53.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i1.23-53

Məqalənin tarixçəsi:
Məqalə redaksiyaya daxil olmuşdur: 16.10.2024
Təkrar işlənməyə göndərilmişdir: 04.12.2024
Çapa qəbul edilmişdir: 03.03.2025

Copyright: © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit
https://creativecommons.org/licenses/by-nc/4.0/.

elmi ictimaiyyətində məşhurluq qazanmağı hədəfləyir. Nəğmələri öz adına çıxarsa da, Mirzə Şəfinin Şərq ruhunu nəğmələrdən ayıra bilmədiyi üçün, etirafları da uğursuzluqla nəticələnir. Onu “Mirzə Şəfinin nəğmələri”nin müəllifi etməli olan etirafları, alman elmi ictimaiyyətində ciddi şübhələr və kəskin tənqidlərə yol açır. Tədricən oxucularının gözündə qazandığı etimadı itirən F.Bodenştedt ilə birgə Mirzə Şəfi də unudulmağa başlayır. Alman cəmiyyətlərində poetik zövlərin sürətli şəkildə dəyişməsi nəticəsində unudulma prosesi bir qədər də sürətlənir. XX əsrin əvvəllərindən Qərbdə unudulan Mirzə Şəfi Azərbaycanda məşhurlaşaraq, artıq yoluna müstəqil olaraq davam edir.

Açar sözlər: Mirzə Şəfi, Şərq, F.Bodenştedt, Qərb, mədəniyyət, nəğmələr, poeziya, psixoloji manipulyasiya, təqlid, plagiat, alman qiyafəsi, unudulma, varislik

1.Giriş

XIX əsr Azərbaycan ictimai-fəlsəfi fikir tarixinə xas poetik və didaktik üslublu ədəbi-fəlsəfi düşüncənin tanınmış nümayəndələrindən biri də Mirzə Şəfi Vazehdir (1794-1852). XIX əsrin çoxsaylı görkəmli Azərbaycan şairlərindən fərqli olaraq, Vazehin şeirləri öncə doğulduqları Qafqazlardan keçib Avropanın tam mərkəzində qərar tutaraq böyük marağa səbəb olduqdan sonra, yenidən vətəninə geri dönmüşdür. Qürbətlərdə olduqları müddətcə dilləri Qərb olsa da, ruhları daima Şərq qalan Mirzə Şəfi nəğmələri, XX əsrdə vərəsəlik bağları əsasında bir vaxtlar doğulduqları Azərbaycana yol tapa bilmişdir. Mədəniyyət tariximizdə nadir hadisələrdən biri kimi, dönəmində öz vətənində yetəri səviyyədə tanınmadığı, şeirləri kifayət qədər bilinmədiyi halda, kənarda təqribən əlli il misli görünməmiş şöhrətdən sonra, varlığını qəriblikdə sürdürən Vazehin yaradıcılığı yenidən özümüzə qaytarılmışdır. Günümüzədək irsinin böyük qismi bilavasitə yox, bilvasitə gəlib çatan Mirzə Şəfi, Azərbaycan oxucusuna alman dilindən edilən tərcümələr əsasında tanıdılmışdır. Ona görə də, Mirzə Şəfi yaradıcılığı tədqiq edilərkən onun tələbəsi olan alaman tərüməçi Fridrix Bodenştedtin (Friedrich Martin von Bodenstedt) (1819-1892) də mütləq şəkildə xatırlanması, bu baxımdan xüsusi önəm kəsb etməkdədir. Tiflisdə Vazehdən Azərbaycan və fars dilləri üzrə dərslər alan Fridrix Bodenştedt Almaniyaya qayıtdıqdan sonra, Mirzə Şəfinin şeirlərini ilk öncə 1850-ci ildə “*Şərqdə min bir gün*” (Tausend und ein Tag im Orient) adlı xatirələr kitabında, 1851-ci ildə bilavasitə şairin öz adı altında “Mirzə Şəfinin nəğmələri” (Die Lieder des Mirza Schaffy), daha sonra 1874-cü ildəsə, özünün yazdığı şeirlər də daxil olmaqla, Mirzə Şəfinin əvəllər dərc etdirdiyi bütün şeirlərini “Mirzə Şəfinin irsindən” (Aus dem Nachlasse Mirza Schaffy’s) adlı əsərində bu dəfə Mirzə Şəfi təxəllüsü altında öz adına çıxarmışdır. Şərq şairi Mirzə Şəfi yox, F.Bodenştedtə çevrilmiş Mirzə Şəfinin şeirləri dərc olunduğu vaxtdan etibarən Almaniyada əksər ədəbi tənqidçilər arasında birmənalı qarşılanmamışdır. Bununla yanaşı, F.Bodenştedt tərəfindən müəllifi Mirzə Şəfinin özü kimi tanıdılan “Mirzə Şəfinin nəğmələri”nə maraq səngiməmiş, “Mirzə Şəfinin irsindən” əsərinin nəşrilə paralel bu əsərin nəşri də mütəmadi olaraq davam etmişdir. Daha öncədən də demək olar ki, hər il, çox zaman isə, yeni dərc edilmiş bəzi şeirlərlə birgə ildə iki dəfə ardıcıl olaraq çap edilən “Nəğmələr”, XIX əsrin 70-ci illərindən XX əsrin əvvəllərinədək olan nəşrlərinin sayı baxımından da “İrs”i böyük ölçüdə üstələyə bilmişdir. Ümumilikdə “Mirzə Şəfinin nəğmələri” geniş oxucu kütləsi qazanaraq, XIX əsrin 50-ci illərindən XX əsrin əvvəllərinədək 300 dəfə təkrar çap edilib bütün Almaniyada şöhrət qazanmışdır [Bayramov, 1987, s.13].

Məşhur plagiat məsələsinə səbəb olan “Mirzə Şəfinin irsindən” əsərinə qarşı həssas alman elmi ictimaiyyətinin (əsasən ədəbi tənqidçilərin) sərgilədiyi

tənqidi münasibət, ilk öncə F.Bodenştedtin çoxsaylı oxucularının əminliklə hesab etdikləri Şərq poeziyasının mahir alman bilicisinə olan sevgi və etimadlarının fonunda yetərincə təsirli olmasa da, sonradan dərinləşən tənqidlər getdikcə daha da artan kəskinliklərilə səciyyələnməkdədir. Qeyd olunan sonuncu məqam XIX əsrdə Almaniya və XX əsrdə Azərbaycan ictimai fikir tarixində özünə yer etmiş olan Mirzə Şəfinin irsi ətrafında məşhur plagiat sualını da aktuallaşdırmışdır. F.Bodenştedtin "İrs"də qələmə aldığı etirafların plagiat olaraq dəyərləndirilməsi məsələsi gündəmə gəlmişdir.

Məqalədə də, "Mirzə Şəfinin nəğmələri"nin məzmun cəhətdən böyük ölçüdə Mirzə Şəfiyə mənsubluğunu sübut edən arqumentləri önə çəkərək, ümumilikdə F.Bodenştedtin etirafları, yol verdiyi plagiat aktı və ya daha geniş mənada, alman tərcüməçinin bilavasitə öz oxucusunu aldatması faktını fəlsəfi təhlil etməyə çalışacağıq. Mirzə Şəfiyə çevrilmiş F.Bodenştedtin Mirzə Şəfidən etdiyi fikir plagiatı probleminə, əksər tədqiqatçıların ənənəvi olaraq Vazehin şeirlərinin analizi üzərindən yox, ilk öncə F.Bodenştedtin öz əsərləri, əsərlərində Mirzə Şəfi haqqında düşüncələri və düşüncələrində əks olunan aşkar ziddiyyətlər əsasında, daha çox fəlsəfi-psixoloji məqamların təhlili müstəvisindən yanaşmağı hədəfləyirik. Düşünürük ki, Mirzə Şəfi və Bustan Əfəndi (Tiflisin ziyalı müsəlmanları Fridrix Bodenştedtə belə xitab edirdilər) arasında keçən dialoqlar, Sovetlər dönəmində birmənalı olaraq qəbul edilən plagiat sualına da kifayət qədər dolğun cavab formalaşdırır.

2.Qərblilərin könüllərini fəth edən Gəncəli müdrik

Şux nəğmələrində yaşayan Mirzə Şəfinin, nəğmələrilə Qərbdə Azərbaycan mədəniyyətini təbliği o qədər də uzun çəkmədi. Belə ki, XIX əsrin ortalarında Mirzə Şəfinin Avropada qazandığı böyük uğur əsrin sonunda qürub çağını yaşamağa başladı. "*Gəncə müdriki sürətlə poeizya kəhkəşanında parladığı kimi, elə o cür sürətlə də unuduldu... Məsələnin belə sonluğa çatmasında F. fon Bodenştedt də günahkar idi, çünki o, 1874-cü ildə şeirlərin M.Şəfinin ruhuna uyğun olsa da, onun diqtəsinin məhsulu olmadığını iddia etdi*" [Yadigar, 2010, s.88]. 1974-cü ildə yazdığı "Mirzə Şəfinin irsindən: proloq və izahlı əlavə ilə yeni nəğmələr kitabı"nda (Aus dem Nachlasse Mirza Schaffy's: Neues Liederbuch mit Prolog und Erläuterndem Nachtrag) "*F. fon Bodenştedtin etirafından sonra şeirlərə Avropada maraq tamam azaldı*" [Yadigar, 2010, s.7]. Azərbaycan şairi Mirzə Şəfi XIX əsrin ortalarında Tiflisdə həyatdan köçsə də, F.Bodenştedtin sayəsində ruhu bir müddət Almaniyada doğuldu, F.Bodenştedtin sonrakı səyləri nəticəsində bu ruh XIX əsrin sonlarında Almaniyada tədricən unudulub, XX əsrin əvvəllərindən etibarən Azərbaycanda əbədi həyat qazandı.

Paradoksal səslənsə də, Mirzə Şəfi heç vaxt görmədiyi Qərbdə və heç vaxt yaşamadığı XX əsr Azərbaycanında böyük ehtiram görməsinə baxmayaraq,

həyatda olduğu müddətcə sonu görünməyən məhrumiyyətlərlə çarpışmalı olmuşdur. XIX əsr Tiflisinin zəngin və rəngarəng mədəni mühiti Mirzə Şəfinin formalaşmasında həlledici rol oynadığı kimi, müəyyən mənada sonralar onun özgələşməsinə də rəvac vermişdir. XIX əsrin 60-cı illərindən (1864-cü ildə Qafqaz müharibəsinin bitməsindən sonra daha da intensivləşən) etibarən geosiyasi mövqeyinin aktuallaşmasından irəli gələrək Tiflisin Qafqazlarda rusların ən önəmli dayaq nöqtələrindən birinə çevrilməsi, öncəki və çox yaxın dönəmlərin tarixi keçmişini yenidən mənalandırmaq baxımından da həlledici olmuşdur. Qafqaz müharibələri zamanı Tiflis şəhərinin strateji önəmi F.Bodenştedtin “Qafqaz xalqları və onların ruslara qarşı azadlıq mübarizəsi” (Die Völker des Kaukasus und ihre Freiheitskämpfe gegen die Russen) adlı əsərində də bütün incəliklərilə öz əksini tapır. O, Rusiya ordusunun cənub diviziyasının Qafqaz müharibəsindəki rolu, bu diviziyaya 1841-ci ildə Qafqaz canişini, general Yevgeni Aleksandroviç Qolovinin (1782-1858) komandanlıq etməsi və cənub diviziyasının baş qərargahının Tiflisdə yerləşdiyini yazır [Bodenstedt, 1848, s.516]. Rusiya imperiyasının Qafqazlarda möhkəmlənməsilə paralel nüfuzu artan Tiflis şəhəri eləcə də, onun sosial və elmi mühitinin yeni reallıqlar fonunda paralel olaraq baş verən transformasiyalarında ən ağır zərbələrdən birini İslam mədəniyyəti almış oldu. XIX əsrdə Qafqazın digər şəhərlərilə müqayisədə Rusiya imperiyası vasitəçiliyilə Qərb mədəniyyətini özünə daha çox çəkmiş Tifilis mühitinin, ənənəvi İslam mədəniyyəti və ədəbiyyatına qarşı etinasız münasibət sərgiləməsi də bu baxımdan səciyyəvidir. “Gürcüstan ədəbiyyat tarixində Gürcüstanın Azərbaycan mədəniyyətinə olan borcu daima diqqətdən kənarda qalır... Gürcüstanda hökm sürən stereotiplərə görə..., bir çox Şərq elementlərini mənimsəməsinə baxmayaraq gürcü ədəbiyat tarixi ‘Şərq’ və müsəlman mədəniyyətinin izlərini çox vaxt sivilizasiyanın arxa planına keçirirdi. Belə ənənələrə mənsubluğu hətta utanc mənbəyinə də çevirirdi” [Gould, 2018, s.11]. Bu baxımdan, 1860-1861-ci illərdə alman şərqşünası (misirşünas) Henrix Karl Bruqşun (Heinrich Karl Brugsch) (1827-1894) Tiflisə səyahəti zamanı Almaniyada adı dillər əzbəri olduğu halda, yerli insanların Mirzə Şəfini tanımamaları və onu bu qədər tez unutmalarına kinayəli bir formada heyrətlənməsi də təsadüfi hal deyil [Brugsch, 1862, s.105]. Çünki, yuxarıda qeyd etdiyimiz dəyişən tarixi reallıqların fonunda formalaşmış etinasızlığın özü ilə birgə unutqanlığı doğuracağı da, baş verməsi gözlənilən hadisə idi.

XIX əsrdə nəğmələri Qərbdə dillər əzbəri olan şair Mirzə Şəfinin Azərbaycanda xüsusi olaraq tədqiqi XX əsrin əvvələrinə təsadüf edir. Adına XIX əsrin məşhur polimat Azərbaycan alimi Mir Möhsün Nəvvabın (1833-1918) 1892-ci ildə tamamladığı təzkirədə (Təzkireyi-Nəvvab) rast gəlinsə də [Сеид-заде, 1969, s.248], Vazehi ilk dəfə daha geniş eləcə də, F.Bodenştedt

kontekstində oxuculara təqdim edən tanınmış maarifçi və Azərbaycan ədəbiyyat tarixçisi Firidun bəy Köçərli (1863-1920) olmuşdur. O, 1911-ci ildə Mirzə Fətəli Axundzadənin (1812-1878) anadan olmasının 100 illiyi münasibətilə nəşr olunmuş topluda yazır ki, "bəzi rəvayətə görə 'Qəzəliyyati-Mirzə Şəfi' (*'Mirzə Şəfinin nəğmələri' əsəri nəzərdə tutulur-Z.R.*) mərhum Mirzə Şəfinin öz kəlamıdır ki, onu F.Bodenştedt farsdan nemescəyə çox gözəl və rəvan dildə tərcümə edibdir. Bəziləri dəxi bu qövldədirlər ki, Mirzə Şəfi xud F.Bodenştedtin özüdür ki, 'Mirzə Şəfi' ləqəbini özü üçün intixab edibdir. Amma bu qövl düz deyil" [Köçərli, 1962, s.22]. 1926-cı ildə "Mirzə Şəfi Vazeh" adlı kiçik bir kitabçada Qafqaz müftisi, ədəbiyyatşünas Mirzə Hüseyn Qayıbzadənin (1830-1917) tərtib etdiyi topludan Vazehin bəzi şeirlərini aşraklayaraq nəşr etdirib, məşhur plagat məsələsinə də bir qədər geniş şəkildə toxunan daha bir ədəbiyyatşünas, mətnşünas və şair Salman Mümtaz (1884-1941) yazır ki, "on üçüncü (*XIX əsr-Z.R.*) əsrin ilk yarısında Azərbaycan türklərini avropalılara tanıdan və onların nəzər-diqqətini Azərbaycan ədəbiyyatına cəlb etməyə müvəffəq olan ədib və şairlərimizin ən görkəmlisi məşhur Mirzə Şəfidir" [Mümtaz, 2005, s.3]. O, qeyd edir ki, "Mirzə Şəfi Hannoverli (*Fridrix Bodenştedt Hannover krallığına daxil olan Payne şəhərindən idi-Z.R.*) yox, Gəncəlidir" [Mümtaz, 2005, s.5].

3.Bir Mirzə Şəfi və iki F.Bodenştedt

İstər tərcümələr əsasında bərpa edilmiş böyük, istərsə də, vətənində aşkarlanmış kiçik həcmli Mirzə Şəfi irsi tədqiq edilərkən onunla birlikdə paralel olaraq F.Bodenştedtin yaradıcılığına və alman tərcüməçinin bilavasitə Şərqlə bağlı əsərlərində öz əksini tapan metodologiyasına da nəzər salmaq vacibdir. F.Bodenştedtin adı ilə bağlı məşhur plagiat məsələsini xüsusi olaraq araşdırmadan və ya ona hansı səbəblərdən yol verildiyinə toxunmadan, Mirzə Şəfinin ədəbi-bədii və fəlsəfi-əxlaqi irsi haqqında da hansısa qəti fikir söyləmək mümkün deyil. Ümumilikdə daima elm adına yolverilməz olmuş bu hadisəyə tarixi, fəlsəfi, ədəbi, hətta psixoloji (fikrimizcə, qeyd olunan plagiat məsələsinin mahiyyətini fəlsəfi-psixoloji analiz daha əsaslı şəkildə açmış olur) meyarlar əsasında qiymət vermədən, Mirzə Şəfinin əbəbi-fəlsəfi görüşlərini demək olar ki tədqiq etmək olmur. Adı gedən məsələyə nəzər salmadıqda daima hansısa boşluqlar qalmaqla yanaşı, məzmun etibarı ilə bitkin olmayan məqamlar da üzə çıxır. Bu şərtlər daxilində isə, məşhur nəğmələrin müəllifliyi sualı öz məntiqli cavabını tapa bilmir. Əsas məsələ mübahisəli olaraq qalmaqla bərabər həm də, daha ziddiyyətli forma da almış olur. Digər tərəfdən, Sovetlər dövrü məşhur Mirzə Şəfi Vazeh tədqiqatçılarının almanlara qarşı bəzən açıq şəkildə ifadə olunan dözümsüzlük ruhu isə, onsuz da mübahisəli olan məsələnin ziddiyyətini bir qədər də artırırdı. "İkinci dünya müharibəsindən sonra almanlara nifrəti artırmaq üçün bütün vasitələri işə salan mənfur Stalin

rejimi nəyin bahasına olursa-olsun almanları bir xalq kimi gözdən salmaq ideologiyası yeridirdi” [Yadigar, 2010, s.10].

“Mirzə Şəfinin irsindən” əsərində F.Bodenştedt tərəfindən qəlmə alınması şübhə doğurmayan və poetik strukturları baxımından XIX əsr Almaniyasının təlatümlü ruhunda olan şeirlər də çoxdur. Bununla belə, adı gedən əsərdə F.Bodenştedt “Mirzə Şəfinin nəğmələri”nin hamısının ona məxsus olmasını iddia etsə də, əksər nəğmələrdəki aşkar Şərq ruhu, sezilən Şərq izi, görünən Şərq motivləri, rəngarəng Şərq koloriti bu iddiaya qarşı ciddi şübhələrə də yol açır. Digər tərfdən, F.Bodenştedt bu nəğmələrin 1850-ci ildən, 1874-cü ildədək Mirzə Şəfiyə deyil, ona məxsusluğunu qələmə alaraq açıq şəkildə və bilavasitə şeirlərin müəllifliyinə iddia da etməmişdir. Bu cəhətdən, tədiqatçılar əksər hallarda plagiat məsələsinin başlanğıcını F.Bodenştedtin 1874-cü ildə “Mirzə Şəfinin irsindən”indəki etiraflarından götürsələr də, qənaətimizcə, bu tarixi F.Bodenştedtin Mirzə Şəfi ilə tanışlığının ilk günlərindən götürmək daha məntiqlidir. Çünki “Şərqdə min bir gün” əsərində F.Bodenştedtin XIX əsr Tiflis mühiti kontekstində Mirzə Şəfi haqqında verdiyi son dərəcə dəyərli məlumatlardan əlavə həm də, günümüzədək Vazeh haqqında yeganə mənbə sayılan bu kitabda müəllif, əslində gerçək məqsədini gizlətmədən əvvəldən aşkar edir. Məramını özü bəlli edən F.Bodenştedt bir növ Mirzə Şəfinin bilavasitə şeirlərindən daha çox, onun Şərq insanına xas emosiyalarını, Qafqaz koloritini, Qərb insanı üçün çəkici olan çılğın xarakterini, Mirzənin yaşantılarını, uğursuz sevgi macaralarının onda yaratdığı disonansları, sözlərindəki dərin hikmətləri, şeirlərindəki poetik çalarları, ümumilikdə nəğmələrin sadəliyi, axıcılığı, onlardakı ironiyanı, yumoru və onların insanda ruh yüksəkliyi yaradan təravətini mənimsəyir. F.Bodenştedt ondakı bu keyfiyyətləri ondan alaraq, bir növ onu öz Qərb təbiətinə ekstrapolyasiya etməyə çalışır. Mirzə Şəfinin donuna girərək özünü Şərq qiyafəsində təqdim etməyə səy göstərir. Təbii ki, F.Bodenştedt bunları sadəcə parlaq Şərq artibutlarının onun zövqünü oxşadığı və rəngarəng Qafqaz mühitinin onun Almaniyanı tərk etdikdə ruhunda daşıyaraq özü ilə birgə gətirdiyi pessimizminə qarşı effektiv əlac olduğuna görə etmir. F.Bodenştedt Mirzə Şəfidə görərək öz təbiətinə də köçürməyə çalışdığı Şərq insanına xas bütün üstün insani məziyyətlərin vasitəsilə, onu Almaniyada səbirsizliklə gözləyən və inqilablardan bezmiş oxucularının qəlblərinə olan uzun məsafəni mümkün olduğu qədər qısaltmağa çalışırdı. XIX əsrin ortalarında Almaniyada formalaşmış olan əks-inqilabi ədəbi mühiti təsvir edən Frans Petroviç Şiller (Франц Петрович Шиллер) (1898-1955) yazır ki, “50-ci illərin əvvəllərindəki burjua poeziyası üçün, ‘apolitiklik’, həssaslıq, həyatdan gedonik şəkildə həzz almaq ənənələri, gerçəkliklə barışmaq əhval-ruhiyyəsinin hökm sürməsi səciyyəvi idi” [Шиллер, 1934, s.258].

XIX əsrdə ilk öncə fəlsəfədə olduğu kimi, ədəbiyyat da daxil olmaqla elmlərin bütün sahələrində son dərəcə yüksək rəqabətin olduğu Almaniya cəmiyyətlərində seçilmək, böyük alimlər arasında özünə yer etmək və elmi ictimaiyyətdə tanınmağı hədəfləyirdi. Təbiətcə pedant və tənqidi ruhlu alman oxucusu üçün XIX əsrdə ecazkar görünən, onu özünə cəlb etmək iqtidarında olan *ən uyğun* üslub məhz, sirli, sehirli, mistik, ezoterik Şərq üslubu idi. F.Bodenştedt əvvəllər də (Yohann Volfqanq fon Götenin (1749-1832) 1819-cu ildə tamamladığı "Qərb Şərq Divanı" bu baxımdan nümunəvidir) rəngarəng Şərq çalarlarına əfsun olmuş, XIX əsrin 40-cı illərindən etibarən isə, sürətlə bir-birini əvəz edən münaqişələr, çaxnaşmalar, inqilablar, siyasi proseslərdən yorğun düşmüş alman oxucusunda dərin maraq oyadaraq, onu hərisliklə "Mirzə Şəfinin nəğmələri"nə bağlayacaq ən effektiv üsulun, məhz parlaq Şərq üslubu olacağını öncədən dəqiq müəyyənləşdirmişdi. O, Mirzə Şəfinin nümunəsində "şair bəşəriyyətin ali hakimidir" [Маковельский, 1955, s.208] prinsipini, ecazkar Şərq çalarları ilə boyayaraq mürəkkəb və taleyüklü hadisələrin cərəyan etdiyi alman ictimaiyyətinə çatdırmağa çalışırdı.

4."Səmimiyyət" və ya psixoloji manipulyasiya

Mirzə Şəfinin obrazı, xarakterik xüsusiyyətləri, insani keyfiyyətləri, gündəlik olaraq gördüyü işlər, yaşam tərzi, həyata baxışı, fəlsəfi məzmunlu düşüncələri, şairlik məharəti, pedaqoq kimi fəaliyyəti, sevgi macaraları, öz dövrünün alimlərilə münasibətləri və bu kimi digər bioqrafik səciyyəli bilikləri, ancaq F.Bodenştedtin kitablarından öyrənirik. Vazeh haqqında olan bu və bu kimi bütün digər vacib məlumatlar xüsusilə F.Bodenştedtin "Şərqdə min bir gün" əsərində olduqca bədii bir formada, Şərq nağıllarına məxsus bir rəngarəngliklə oxuculara təqdim olunur. F.Bodenştedtin Qərb oxucusuna nümayiş etdirmək üçün belə bir ecazkar üslubu seçməsi də təsadüfi hal deyil. Mirzə Şəfi irsini araşdıran tədqiqatçılardan bu məsələyə xüsusi diqqət yetirənlər də olmuşdur. Məsələn, Əliəjdər Seyidzadə (1899-1970) yazır ki, "F.Bodenştedt 'Şərqdə min bir gün'ü ərəb xalq nağılları olan 'Min bir gecə'yə təqlid edərək yazıb" [Сеид-заде, 1969, s.159]. İvan Konstantinoviç Yenikolopov (Enakolopaşvili) (1893-1994) "Şərqdə min bir gün" əsərinin ümumi kompozisiyasını təsvir edərək yazır ki, F.Bodenştedt "fantaziyalara kifayət qədər yer ayırdığından bu məqam müəllifə öz əsərini, Şəhrizadənin 'Min bir gecə' nağıllarını xatırladan bir ad ilə adlandırmaq üçün əsas verib" [Ениколопов, 1938, s.40].

Nağılvari, hekayəvari tərtibata malik "Şərqdə min bir gün" əsərində F.Bodenştedtin Mirzə Şəfinin ümumilikdə türklərə, qafqazlılara və Azərbaycan xalqına xas xüsusi Şərq temperamenti və ya qərblilərin gözündə zəiflik kimi dəyərləndirilən emosionalığından istifadə edərək, onu psixoloji planda istismar etməsini də açıq şəkildə görmək olur. Maraqlıdır ki,

F.Bodenştedt adı gedən əsərində XIX əsrin Şərq insanına səmimiyyət nümayişi kimi göründüyü halda, XIX əsr Qərb insanı (xüsusilə tənqidi ruhlu və diqqətli alman oxucusu) üçün məkirliliyi anındaca bəlli olan bu kimi məqamları qələmə almaqdan da çəkinmirdi. Mirzə Şəfinin fitrətinə tamamilə yad olan incə qərbsayağı “psixoloji oyunlar” vasitəsilə onu emosional məngənələrə salaraq, qoparmağı hədəflədiyi fikirləri asanlıqla ondan qoparırdı. Düşünürük ki, Vazeh irsinin tədqiqinə həsr edilən tədqiqatları araşdırarkən məşhur plagiat məsələsinə xüsusi olaraq rast gəlmədiyimiz psixoloji rakursdan yanaşmaq metodu, tam olaraq hələ də öz həllini tapmamış bu məsələnin işıqlandırılması cəhətdən yeni bir yanaşma forması kimi də məqsədəuyğundur. Qeyd edək ki, Vazeh irsinin tədqiqilə məşğul olan Azərbaycan alimlərindən plagiat probleminin işıqlandırılmasında digər elm sahələrinin nümayəndələrilə yanaşı, məhz psixoloqların da iştirakının təşviqinə önəm veriləcəyi halda, məsələnin həllinin daha səmərəli olacağını vurğulayanlar olmuşdur. Məsələn, Vaqif Arzumanlıya (1947-2014) görə, “F.Bodenştedt probleminə ədəbiyyatçılardan əlavə psixoloqları da cəlb etmək maraqlı olardı” [Arzumanlı, 2005, s.183].

Söhbətlərinin birində Mirzə Şəfi ilə arasında keçən polemikanı təsvir edərək F.Bodenştedt, “Mirzənin sözünü kəsib daha çox Hafizdən oxuduğu halda, nədən öz nəğmələrindən oxumadığını ondan soruşur. Hafizin valehedici nəğmələrini istədiyi zaman özü də oxuya biləcəyini ona bildirir. Mirzə Şəfiyə onun səsini, ancaq onunla olduğu müddətdə eşitmək imkanının olduğunu xatırladır” [Bodenstedt, 1851, s.274]. Mirzə Şəfi F.Bodenştedtin bu kimi psixoloji provokasiyalarına emosional bir şəkildə reasksiya verərək, onun “xahişinə” dərhal əməl edir [Bodenstedt, 1851, s.274]. Bu yolla F.Bodenştedt çılğın Şərq təbiətinə malik Mirzə Şəfinin fitri istedadı, şair ruhundan hasil olan intellektual məhsullarını və bədii-fəlsəfi fikirlərini bir növ psixoloji planda istismar edirdi. Vazehə xas olan emosionallıq və bəlağətli Şərq koloritilə söylənən bu şeirlərindən tatar (azərbaycan) və fars dilləri üzrə bilgilərinin imkan verdiyi səviyyədə tərcümə edərək köçürürdü. Gerçəkdə gizli psixoloji təzyiqlərlə müşayiət olunan bu kimi ünsiyyət proseslərində, əksər hallarda Mirzə Şəfi tərəfindən ani yaşantı anı olaraq və bədahətən söylənilən bu canlı şeirləri özünküləşdirərək qələmə alırdı. Bu şeirlərin yazıya keçmədən və düzəlişlər edilməmiş ilkin şifahi formalarını mənimsəyirdi.

Qeyd edək ki, Mirzə Şəfinin tez-tez şeirlərindən F.Bodenştedtə oxuduğu Hafiz Şirazinin (1325-1390) irsi artıq XVIII əsrdən etibarən Qərbdə yaxşı məlum idi. Onun əsərləri hələ XVIII əsrdə Böyük Britaniya filoloqu Vilyam Cons (William Jones) (1746-1794) tərəfindən ingilis dilinə tərcümə edilmişdir [Anushiravani & Atashi, 2012]. Bu əsrdən başlayaraq Hafizin şeirləri Avropada dillər əzbəri olmuşdur. Mirzə Şəfi ilə tanışlığından çox sonralar F.Bodenştedtin özü də Hafizdən müəyyən tərcümələr edərək, onları 1877-ci

ildə “Şirazdan olan xanəndə: Hafizin nəğmələri” (Der Sänger von Schiras: Hafisische Lieder) adı altında nəşr etdirmişdir. Eləcə də, onun digər bir fars şairi Ömər Xəyyamı (1048-1131) tərcümə etməsi də məlumdur. F.Bodenştedt bu tərcümələri 1881-ci ildə “Ömər Xəyyamın nəğmələri və nəsihətləri” (Die Lieder und Sprüche des Omar Chajjam) adlandıraraq dərc etdirmişdir. Alman islamşünası İohan Kristof Bürgel (Johann Christoph Bürgel) (1931) hesab edir ki, “F.Bodenştedt ‘Mirzə Şəfinin nəğmələri’ndəki ahəng, qafiyə və səs oyunlarını eyni dərəcədə bu tərcümələrində (*Hafiz və Xəyyam şeirləri nəzərdə tutulur-Z.R.*) də nümayiş etdirir” [Bürgel, 2004, s.10-11].

F.Bodenştedtin öz əlilə qələmə aldığı xatirələrdən, onun təbiətən Mirzə Şəfiyə xas səmimiyyətdən (F.Bodenştedtin özünə qarşı da xüsusi olaraq nümayiş etdirilən) sui-istifadə etməyə çalışdığı da aydın şəkildə görünür. Mirzə Şəfi F.Bodenştedtə emosional vəziyyətdə və məhz oun xahişini yerinə yertirmək məqsədilə bədahətən söylədiyi şeirlərin keyfiyyətinə bəzən şübhə də edirdi. Belə məqamlarda “Mirzə Şəfi qəfildən F.Bodenştedtin sözünü kəsərək sən yazmırsan, elə deyilmi? – deyə ondan soruşur. Əlbəttə yazıram; Mənə yazmağımı demişdin axı! Bunun qarşılığında Mirzə Şəfi ancaq belə cəfəngiyyatı yazmamalısan! deyə F.Bodenştedtə cavab verir” [Bodenstedt, 1851, s.274]. F.Bodenştedt bu kimi “brain ring” oyunları ilə, Mirzə Şəfini psixoloji olaraq istismara davam edərək, məharətlə öz gerçək məqsədini ondan gizlədirdi. Bir insan kimi onun səmimiyyəti və Şərq şairinə xas poetik üslubun gözəlliyinə duyulan məsuliyyətini bir növ onun özünə qarşı istifadə edirdi. “Şərqdə min bir gün” əsərinin növbəti səhifələrində F.Bodenştedt Vazehin qəlbinin saflığından sui-istifadə edərək və onunla söhbətlərində saxta intriqalar yaradaraq, ona daha asan şəkildə təsir etməyi öyrəndiyini bilavasitə özü də diqqətli alman oxucularına nümayiş etdirirdi. Plagiat məsələsinin doğuluşunda F.Bodenştedtdən daha çox günahkar olan Adolf Berje (1828-1886) də, 1870-ci ildə “Alman Şərq Cəmiyyətinin jurnalı”nda (Zeitschrift der Deutschen Morgenländischen Gesellschaft) əsasən alman oxucusu üçün nəzərdə tutulan və onu gələcəkdə F.Bodenştedtin özünü “Nəğmələr”in müəllifi elan etməsinə hazırlayan “Mirzə Şəfi” (Mirsa Schaffi) adlı məqaləsində yazırdı ki “Mirzə Şəfi həyatı, şəxsiyyəti, yüksək mənəvi saflığı və nadir insani keyfiyyətləri sayəsində onu tanıyan hər kəsin sevgisini qazana bilmişdir” [Berge, 1870, s.432]. O, məqalədə üstüörtülü şəkildə “Nəğmələr”dəki saf qəlbli Mirzə Şəfini Bodenştedtə çevirməklə, alman tərcüməçini şairləşdirib nəğmələri də onun adına çıxarırdı. O, yazırdı ki, “əslində Mirzə Şəfi Bodenştedtin sayəsində şair olmuşdur” [Berge, 1870, s.429].

Növbəti söhbətlərinin birində “Mizə Şəfi F.Bodenştedtə Füzulidən qəzəl oxuduqda o, oxunan qəzəlin zərbbəndində Füzulinin yox, məhz Mirzə Şəfinin adı keçəcəyi halda, şeirin daha çox ürəyincə olacağını dedikdə, Mirzə Şəfi

onda öz şeirlərimdən sənə oxuyaram deyə həmən ona cavab verir” [Bodenstedt, 1859, s.279]. Ə.Seyidzadəyə görə, “nəğmələrin arasında elələri vardır ki, çox az bir qismi hərfi tərcümə olmaqla nə Mirzə Şəfi nə də ki, F.Bodenştedtə aiddirlər” [Сеид-заде, 1940, s.49]. Bu qəbildən olan nəğmələrin müəyyən bir qisminin Məhəmməd Füzuliyə (1494-1556) aid olması şübhəsizdir. XIX əsr şairlərimizin əsas ilham mənbəyi olan Füzulinin ruhu bu və ya digər dərəcədə “Nəğmələr”də də əks olunmaqdadır.

Bəlli əsərin növbəti səhifələrində də F.Bodenştedtin bənzər psixoloji fənnlərdən istifadə edərək Mirzəni getdikcə daha çox öz toruna çəkdiyinin şahidi oluruq. Məqsədyönlü formada istismar olunduğunu anlamaq iqtidarında olmayan şərqli Mirzə Şəfi, hər dəfə F.Bodenştedtə verdiyi vədlərin say baxımdan artdığına məhəl qoymurdu. Şərq insanın öncədən verdiyi sözə nəyin bahasına olursa-olsun əməl etməsi ən yüksək əxlaqi məziyyətlərdən sayıldığından, bunu aydın dərk edən F.Bodenştedtin qeyd edilən qəbildən olan tələblərində nədən bu qədər israrlı olması da aydınlaşmış olur. F.Bodenştedtin artan bu istəklərində, hətta, bir qədər də irəli gedib aralarındakı “dost” münasibətlərindən sui-istifadə edərək, Mirzə Şəfinin şəxsi həyatına müdaxilə etməkdən çəkinmədiyini də oxumuş oluruq. “O, Mirzə Şəfinin eşqə mübtəla olub qəm-qüssəyə qərq olmasından istifdə edərək, məhəbbətinin sirrini ondan gizlətdiyi kimi, eynən nəğmələrini də gizlətdiyini bildirib, dərhal onun cibində saxladığı kağıza işarə etdikdə, Mirzə bir qədər fikrə getikdən sonra al oxu” [Bodenstedt, 1859, s.280] deyə ona emosional bir şəkildə cavab verir. Yuxarıda qeyd edilən məqamları ümumiləşdirərək düşünürük ki, gələcəkdə plagiat kimi təsinfatlandırılacaq məsələnin kökü də elə buradan, yəni, F.Bodenştedt və Vazeh tanışlığının daha erkən vaxtlarından başlayır. Qonaqsevər Qafqaz müsəlmanlarına xas emosional təbiətli Mirzə Şəfinin çox vaxt qeyri-iradi formada F.Bodenştedtə oxuduğu şeirlər sonuncu tərəfindən anındaca başa düşdüyü səviyyədə tərcümə edilərək, gələcəkdə plagiat sualının da doğuluşu üçün gərəkli zəmin hazırlamışdır.

Mirzə Şəfi irsinin tədqiqilə məşğul olan tədqiqatçıların böyük bir qismi (demək olar ki, hamısı) plagiat probleminin kökünü, F.Bodenştedtin “Şərqdə min bir gün” əsərində xüsusi olaraq qeyd etdiyi kimi, Mirzə Şəfinin ona bağışladığı dəftərdən və ya şairin əlyazma şəklində olan şeirlərinin F.Bodenştedtin əlinə keçdiyi hadisənin tarixçəsi və ondan sonrakı proseslərdə görürlər. Çünki F.Bodenştedt özü də “Şərqdə min bir gün” əsərində açıq şəkildə Mirzə Şəfinin ondan yadigar qalsın deyə, alman tələbəsinə hikmətin açarı adlandırdığı nəğmələr toplusunu hədiyyə etdiyini yazır [Bodenstedt, 1859, s.194]. Vazehşünaslıqda ən qaranlıq nöqtə olan bu məqam ətrafında baş qaldıran plagiat ehtimallarının əksəriyyəti, F.Bodenştedtin Almaniyaya döndükdən sonra *müəmmalı* şeirlər toplusunu tərcümə edərək ilk öncə

Şərqdəki bütün xatirələrilə birgə "Şərqdə min bir gün" əsərində, Mirzə Şəfinin öz şeirləri qismində, "Mirzə Şəfinin nəğmələri"ndə ayrıca şeirlər toplusu kimi, daha sonra "Mirzə Şəfinin irsindən" adlı əsərində isə, Mirzə Şəfinin deyil, artıq öz adından vermәsindən qaynaqlanır.

Düşünürük ki, qeyd olunan məqamların ziddiyyətliliyi və əsasən də adı gedən əlyazmanın hələ də aşkarlanmaması fonunda, F.Bodenştedtin Mirzə Şəfinin şeirlərini ondan dərs aldığı müddətdən başlayaraq tərcümə etdiyi daha inandırıcı arqumentdir. Bu məntiqdən çıxış etdikdə, F.Bodenştedtin uzun plagiat yolu vətəni Almaniyada yox, elə Tiflisdən başlayır. Alman tərcüməçinin plagiatı Mirzə Şəfinin ona verdiyi fərziyyəvi dəftərdən öncə, F.Bodenştedtin Tiflisdə Mirzə Şəfi ilə keçirdiyi vaxtlardan və bu zaman baş verən "səmimi" ünsiyyətlərdən qaynaqlanır. Düşünürük ki, istər yazılı formada olan hansısa dəftərin tərcümə edilərək müəllifin deyil, tərcüməçinin adı altında nəşri istərsə də, söhbətlər zamanı qarşı tərəfin fikirlərinin bilərəkdən şüurlu surətdə mənimsənilərək sonradan təqlidi bütün hallarda mahiyyət etibarı ilə plagiat aktıdır. Bu məntiqdən çıxış etdikdə, günümüzə kimi tapılmayan dəftərədək, F.Bodenştedt ünsiyyətləri zamanı Mirzə Şəfinin bədii üslubunu, poetik tərzini, şərqliliyini, düşüncələrini, yaşantılarını, hisslərini, duyğularını, bəzi nəğmələrin real tarixçələrini özünküləşdirərək cızma-qara şəklində qələmə alıb, gələcək əsərlərində daha geniş təqdim etməyə hazırlaşmaqla artıq plagiata yol vermişdir. Fikrimizcə, bütün bunları etməklə F.Bodenştedt bir növ Mirzə Şəfinin şəxsiyyətini də bilvasitə oğurlamış olurdu. Bu halda isə, artıq Mirzə Şəfinin kimliyi məsələsi də sual altına düşürdü. Azərbaycan tədqiqatçılarının bu məsələyə də xüsusi olaraq diqqət yetirmələrini bir növ gərəksiz hesab edən tanınmış Sovet şərqşünası Yevgeni Eduardoviç Bertels (1890-1957) yazır ki, "Mirzə Şəfinin real insan olmasını deyil, onun şeirlərinin F.Bodenştedtə məxus olmadığını sübut etmək daha önəmli məsələdir" [Сеид-заде, 1940, s.ii].

"Şərqdə min bir gün" əsərində vurğulanan bilinməz dəftər məsələsinə qayıtdıqda, F.Bodenştedt Mirzə Şəfinin kifayət qədər bacarıqlı tələbələrindən biri olsa da, Vazehin qısa bir müddət ərzində tanıdığı hansısa qərbliyə öncədən heç bir yerdə dərc olunmamış şeirlər toplusunu hədiyyə etməsi fikri o qədər də inandırıcı görünmür. Düşünürük ki, gələcəkdə xəyanət ediləcək bu müəmmalı əmanətin, F.Bodenştedtin Şərq nağıllarına aludə olaraq uydurduğu, oxuculara ecazkar gələcək və onlarda müəllifin əsərlərinə qarşı maraq yaratmağı hədəfləyən bir məqam olması məntiqi baxımdan daha inandırıcı fərziyyədir. F.Bodenştedtin təsvir etdiyi sirli dəftər çox güman ki, mövzusu "Min bir gecə" nağıllarından qidalanan və hər kəsi heyrətə salmağı hədəfləyən simvolizmdir. Yuxarıda qeyd etdiyimiz kimi, Mirzə Şəfinin izafi səmimiyyəti F.Bodenştedtin əsərləri eləcə də, plagiat məsələsində onun əsas havadarı A.Berjenin "məşhur"

məqaləsində öz sübutunu tapsa da, təcrübəli və dünya görmüş bir Azərbaycan şairinin öz şeirlərini “itə atmaqdansa, yada satacaq” qədər sadəlöh olmasına inanmaq da çox çətindir. Vazehin şeirlərinin əvvəllər heç bir yerdə dərc olunmaması məsələsinə aydınlıq gətirən İ.K.Yenikolopov, “nağmələrin Mirzə Şəfi həyatdaikən çap edilməməsinin bir səbəbi kimi, onun yaxşı xəttat olmasından irəli gələrək əsasən bu üsula üstünlük verməsini eləcə də, o zamanlarda Kazan və Peterburqda nəşri mümkün olduğu halda, Tiflis tipoqrafiyalarında fars və türk dillərində çap imkanlarının olmaması faktı ilə əlaqələndirirdi” [Ениколопов, 1938, s.45]. O, həm də, F.Bodenştedtin Mirzə Şəfidən etdiyi plagiat faktını da birmənalı olaraq təsdiq edirdi [Ениколопов, 1975, s.47].

Digər tərəfdən, mənaya, hikmətə, şeirə, qafiyəyə, sözə vurğun olan Azərbaycan şairinin öz külliyatına qarşı bu dərəcədə etinasız münasibətini heç cür təsəvvür etmək də mümkün deyil. Ehtimal edirik ki, F.Bodenştedt qulağına nəğmə kimi səslənən şeirləri söz sənətinin xiridarı olan Mirzə Şəfini “uğurlu” psixoloji imtəhana çəkərək özü toplamağa müvəffəq olmuşdur. Onun şifahi şəkildə söylədiyi şeirləri mümkün olduğu qədər qələmə alıb, adı gedən dəftəri də uyduraraq öz təxəyyülündə tərtib etmişdir. Adı gedən dəftərin XX əsrdən başlayaraq plagiat məsələsini kifayət qədər obyektiv şəkildə araşdırmağa cəhd edən alman tədqiqatçıları tərəfindən aşkarlanmaması faktı da, yuxarıda qeyd olunan ehtimalın həqiqətə yaxın olduğunu göstərir.

Digər tərəfdən, qurduğu sistemli “psixoloji oyunlar”ından əlavə, F.Bodenştedt bir-çox hallarda Vazehin poetik yaradıcılığına bilavasitə canlı olaraq şahidlik də edirdi. “Mirzə Şəfinin nəğmələrinin çoxu birbaşa gözümün önündə yazıldığından, onların yazılma tarixçəsi bəzən nəğmələrin özləri qədər maraqlı olurdu” [Bodenstedt, 1859, s.195]. “Şərqdə min bir gün” və “Mirzə Şəfinin nəğmələri”ndə əks olunan bir çox şeirlərin son dərəcə tünd Şərq rənginə boyanmış əhvalatları əks etdirməsi də buradan qaynaqlanmaqdadır:

Tulla gəl çadranı... görünsün üzün
Gül də gizlədərmi de bağda özün?! [Vazeh, 1961, s.76].

Məlumdur ki, bu qəbildən olan mövzular son dərəcə alleqorik formalarda olsa da, dərin fəlsəfi məna altında orta əsr mütəsəvviflərinin əsərlərində də əks olunurdu. Böyük İslam alimi Mühyiddin İbn Ərəbinin (1165-1240) “Tərcümanül-Əşvaq” adlı əsəri bu baxımdan nümunəvidir. İbn Ərəbi fəlsəfi cəhətdən sistemləşdirdiyi vəhdəti-vücud təliminin kontekstində çadranın üzü örtməsini Tanrının üluhiyyətinin onun zatını gizlətməsi kimi mənalandırdığı dini-fəlsəfi məqamlar əsərin müxtəlif səhifələrində öz əksini tapır [İbn Arabi, 2013, s.89, s.109]. F.Bodenştedtin tərcümələrində XIII-XIV əsr şairlərindən İbn Yəmin Əmir Fəxrəddin Mahmudun (1286-1368) atəş böcəyilə söhbətini

əks etdirən şeir də [Vazeh, 1961, s.60], klassik Şərq poetik, dini və fəlsəfi mövzularındandır.

Ən uğurlu Səfəvi hökmdarlarından biri olmaqla yanaşı, rəvayətlərə görə qədarlığı ilə də seçilən I Şah Abbasdan (1571-1629) bəhs edən nəğmənin də, bilavasitə bu mədəniyyətin daşıyıcısının intellektual məhsulu olduğu aydındır.

Şah Abbasın bir vaxt zülmü yetmirdi sona,
Kim gəldi tullayırdı bir-bir zindana.
Məsləhətə qulaq asmaz, fikri qan idi,
Tanrısından üzü dönmüş hökmran idi [Vazeh, 1961, s.78].

O cümlədən, qısa bir müddət ərzində Tiflisdə yaşamış bir almanın, artıq Arazın o biri tayında qalmış Qacarlardakı taleyüklü prosesləri *müstəqil şəkildə və öz düşüncəsi əsasında* təsvir etmək iqtidarında olması da inandırıcı məsələ deyil. Məsələn, 1835-1848-ci illərdə Məhəmməd şah Qacarın (1808-1848) baş vəziri olmuş Hacı Mirzə Ağası İrəvaninin (1783-1849) müstəbidliyini təsvir edən nəğmə bu baxımdan nümunəvidir.

Bax gör, Mirzə Hacı Ağası birdən
İranda nə böyük bir cənab olub!
Əvvəl seçilməzdi heç birimizdən,
İndisə sinəsi nişanla dolub! [Vazeh, 1961, s.80].

5.Plagiat və ya oxucuya xəyanət

Düşünürük ki, plagiat məsələsi ətrafında dolaşan bütün şübhələr və irəli sürülən fərqli ehtimalları bir kənara qoyub, F.Bodenştedtin Mirzə Şəfi haqqındakı təəssüratlarını öncə və sonra qələmə alarkən ilk növbədə onun, əsərlərini hərislikə oxuyan alman oxucularını aldatdığının da şahidi oluruq. Sonuncu vacib məsələyə xüsusi diqqət yetirən Mikayıl Rəfili (1905-1958) yazır ki, "Mirzə Şəfinin şair və düşünür obrazını yaratmağa cəhd edən Bodenştedt 1874-cü ildə yazdığı əsərinin girişində Mirzə Şəfi haqqında olan ilk kitabındakı bütün obyektiv təsvir və xarakteristikadan imtina edərək onun obrazını təhrif etməklə həm də, nəğmələrin çoxsaylı oxucularını da yanıltmışdır" [Рафили, 1958, s.35]. F.Bodenştedt onu böyük həvəslə mütailə edən və yaradıcılığına pərəstiş nümayiş etdirən kütləni itirməmək üçün, 1874-cü ildən sonra öz alman oxucusunu da psixoloji olaraq manipulyasiya etməyə çalışırdı. İmmanuel Kantın (1724-1804) fəlsəfi ənənələrilə tərbiyə olunan, fəlsəfədən etikaya, etikadan estetikaya qədər tənqidi ruha malik tələbkar alman oxucusunu "inandırmaq", saf insani keyfiyyətlərə malik Mirzə Şəfinin emosiyalarını imtəhana çəkməkdən daha çətin görünən bir missiya idi. F.Bodenştedt "Mirzə Şəfinin irsindən" əsərində açıq şəkildə yazmasa da, amma, "inandırmaq" işində XIX əsrin Avropasına xas və imperialist ənənələrin yayğınlıq qazandığı bir ortamda Şərqi ikinci dərəcəli görmək tendensiyasından da böyük məharətlə istifadə edirdi. Qeyd olunan əsrdə bu

ifrat düşüncə Şərqin iqtisadi planda istismarına haqq qazandırdığı kimi, onun insanının intellektual istismarı məsələsini də bəzən fərqli bir rakursdan təqdim edib onu da, hər şeyə haqq qazandırmaq iqtidarında olan “universal” üstünlük paradiqması kontekstində həll edirdi. Düşünürük ki, öncə yazdığı fikirləri təkzib edib onları tamamilə fərqli formada tədqdim edən F.Bodenştedt oxucularını “inandırmaqda”, məhz sonuncu məsələnin effektinə daha çox ümid bəsləyirdi.

Mirzə Şəfinin nəğmələrinin öz intellektual məhsulu olmasını iddia etdiyi “Mirzə Şəfinin irsindən” adlı əsərinin izahedici əlavəsində F.Bodenştedt yazır ki, “Almaniyada yayğınlaşmış fərziyyələrin birinə əsasən, Mirzə Şəfi məşhur fars şairi olub və mən də, ilkin təravət və bütün cazibəsini qoruyaraq onu alman dilinə tərcümə etmişəm... Formalaşmış başqa bir fərziyyəyə görə, Mirzə Şəfi heç vaxt yaşamamışdır. Onun adı və şeirləri mənim uydurmalarımdır... İstənilən halda fərziyyələrin hər ikisi məni qane edir... Çünki tərcümələr indiyə kimi görünməmiş bir uğurdur. Şair kimi də elə bir obraz yaratmağa müvəffəq olmuşam ki, insanlar bu obrazın Nurundan Nurlanırlar. Həqiqət budur ki, nəğmələrdən cəmi biri istisna omaqla qalanları tərcümə deyil və mövcudluqlarına görə təkcə mənə borcludurlar... Amma uzun müddət tatar və fars dillərindən müəllimim olmuş Mirzə Şəfinin də bu nəğmələrin doğulmasında əməyi olmuşdur. Nəğmələrin böyük qismi Şərqə səyahətimin nəticəsidir ki, əks halda onları ərsəyə gətirmək mümkün olmazdı” [Bodenstedt, 1891, s.190-191]. F.Bodenştedt onun Şərq motivlərini əks etdirmək iqtidarında olan bir şair kimi püxtələşməsində Mirzə Şəfinin rolunu “Şərqdə min bir gün” əsərində də etiraf edərək yazırdı ki, “Mirzə Şəfinin mənə qarşı olan münasibəti, mənim bütün sonrakı Şərq təcrübəmə də təsir göstərmişdir” [Bodenstedt, 1851, s.277]. Göründüyü kimi, F.Bodenştedt istər tərcümələrin istərsə də, bilavasitə şeirlərin müəllifi olmağa razı olduğunu yazmaqla əslində, qazandığı məşhurluğun fonunda onun üçün alman ictimaiyyətində formalaşmış fərziyyələr arasında heç bir fərqin qalmadığına, hətta, hər ikisinin mənaca bərabərləşdiyinə ehyam vururdu. Oxucusuna üstüörtülü şəkildə bunların hər ikisinin artıq gerçəkləşmiş həqiqətlər olduğunu eşitdirməyə çalışırdı. O, qazanılan böyük uğurun fonunda oxucunun ona artıq hansı gözlə baxmasının onun üçün heç bir əhəmiyyət kəsb etmədiyini də göstərməyə çalışırdı. Bir növ oxucusuna bəlli fərziyyələrin sərbəst şəkildə seçimini təklif etmədən (mənaaltı formada eşitdirərək), onları birbaşa olaraq artıq gerçəkləşmiş qəti bir fakt qarşısında qoyurdu. Daha sonra, bəzi nəğmələrdəki son dərəcə aşkar Şərq üslubunun mənşəyinə münasibətdə doğulacaq sualları önləmək üçün, onların doğuluşunda Şərq mühitinin rolu və müəllimi Mirzə Şəfinin təsirlərini də xüsusi olaraq qeyd edirdi. Şərq üslubunun mənşəyi sualı ətrafında baş qaldırmış əsaslı şübhələri önləmək üçün F.Bodenştedt demək olar ki, həyatının

sonunadək alman elmi ictimaiyyətində özünə qarşı müsbət rəy formalaşdırmaqla məşğul olmuş və ziddiyyətli fikirlərini inandırıcı etmək üçün mütəmadi olaraq tutarlı istinadlar axtarışını davam etdirmişdir. O, son qələmə aldığı "Ömrümün xatirələri" (Erinnerungen aus meinem Leben) adlı əsərinin yekun bölümündə (1890) yazır ki, "Auqsburqda... Avqust Daniel fon Binzerin evində olduğum müddət..., ona və onun ziyalı xanımı Emili fon Binzerə... Şərqdə yazılmış bir neçə kiçik nəğməmi əzbərdən oxudum. Bəlkə də bu səbəbdən xanım fon Binzer sonralar "Mirzə Şəfinin nəğmələri" əsərim nəşr olunduqda tez-tez verilən suala, yəni, nəğmələrin mənşəyi sualına ilk dəfə düzgün cavab vermiş oldu... O, dostları vasitəsilə... dövrün ən məşhur alman şərqşünası baron fon fon Hammer-Purqştaldan Şərqdə həqiqətən Mirzə Şəfi adlı şairin yaşayıb-yaşamadığına dair dəqiq araşdırmalar aparmasını xahiş etdikdə, aldığı cavab da özünü çox gözlətmədi. Bu nəğmələrin mənşəyilə bağlı bütün şübhələr, onları yalnız mənim timsalımda axtarmaqla aradan qalxmış oldu" [Bodenstedt, 1890, s.47-48]. F.Bodenştedtin şair Avqust Daniel fon Binzer (August Daniel von Binzer) (1793-1868), yazıçı Emili fon Binzer (Emilie von Binzer) (1801-1891), böyük fars şairi Hafizin "Divan"ından alman dilinə tərcümələr etmiş Avstriya şərqşünası Yozef fon Hammer-Purqştala (Joseph Freiherr von Hammer-Purgstall) (1774-1856) istinadları ilk öncə öz etibarını qorumaq məqsədi daşıyırdı. F.Bodenştedtin Mirzə Şəfini də bəzən fars şairi kimi təqdim etməsi, Azərbaycan tədqiqatçıları tərəfindən çox vaxt tənqidi qarşılansa da, düşünürük ki, Tiflisdə qısa bir zaman kəsiyində yaşamasından irəli gələrək bölgənin və qonşu müsəlman xalqlarını bir-birindən tam ayırmaq iqtidarında olmayan Bustan Əfəndidən bu kimi incəlikləri tələb etmək heç də doğru deyil. Digər tərəfdən, onun ilk öncə öz maraqlarından çıxış edərək sürətli şəkildə bir-birini əvəz edən siyasi proseslər fonunda, alman oxucusunun dəyişən estetik zövqlərini ödəmək məqsədini qarşısına qoyduğunu da nəzrə almaq lazımdır. F.Bodenştedt Mirzə Şəfini fars şairi etməklə tərcümələr əsasında Xəyyam, Hafiz kimi şairləri mütailə etmiş alman oxucusuna bir növ yarınmağa çalışırdı. Bununla belə, F.Bodenştedt kimi kənar, yəni, XIX əsr Qərb aliminin Mirzə Şəfinin nümunəsində fars elementlərinin türk mədəniyyətindəki mühüm yerini düzgün təyin etməsi də maraq doğuran bir məsələdir. O, yazır ki, "Mirzə Şəfi mənşəcə tatar (*türk-Z.R.*), mədəniyyətcə (*ümumilikdə dil, təhsil, dünyagörüşü, zövqlər və bu kimi digər məqamları nəzərdə tutur-Z.R.*) fars idi" [Bodenstedt, 1891, s.193]. Günümüzdə formalaşmış stereotipləri bir kənara qoyaraq bu tarixi məsələyə fəlsəfi yanaşdıqda, yad bir qərblinin gözündən Azərbaycan şairinin timsalında XIX əsr reallıqlarının bundan dəqiq təsvir edilə biləcəyini təsəvvür etmək mümkün deyil. Bu bir gerçəklikdir ki, XIX əsrdə Azərbaycan-türk mədəniyyəti ümumilikdə fars mədəniyyəti çərçivələrində, xüsusən də fars dililə sıx

vəhdətdə inkişaf edirdi. Bir-birini üzvi şəkildə tamamlayan bu iki mədəniyyət, bəlli dövrün reallıqları fonunda 1828-ci ildən sonra da Arazın hər iki sahilində vəhdətdə inkişaf etmişdir.

Eləcə də, Bustan Əfəndi XIX əsr kontekstində türklərin də fars mədəniyyəti, xüsusilə İranın dövlətçilik ənənələrində oynadıqları rolu son dərəcə dolğun təsvir edirdi. O yazır ki, “tatarlar (*türklər-Z.R.*) farslar qədər zəngin ədəbiyyata eləcə də, Şərqin fransızları (*farsları nəzərdə tutur-Z.R.*) kimi zahiri parıltıya malik olmasalar da, onlar farsların çoxdan itirmiş olduqları özünə inam, kişi heysiyyəti (*männliche Kraft*) və etibarlılıqlarını qoruyub saxlaya bilmişdirlər” [Bodenstedt, 1891, s.193]. Mirzə Şəfidən mütəmadi olaraq Xəyyam, Hafiz ilə yanaşı, Cəlaləddin Rumi (1207-1273) [Bodenstedt, 1882, s.179-187] Sədi Şirazi (1210-1292) [Bodenstedt, 1882, s.189-192] və Əbdürrəhman Cami (1414-1492) [Bodenstedt, 1882, s.188] kimi şairlərin şeirlərini eşidən, fars-türk identifikasiyasında isə, Qərbdə qəbul olunmuş dil faktorunu əsas tutan Bustan Əfəndinin bu “qüsuru”, ikinci daha dərin fəlsəfi məna yükünə malik məqamı nəzərə aldıqda bağışlanılasıdır. Tatarlar-türklərin “farsların çoxdan itirdikləri özünə inam, mərdlik, dəyanət, igidlik və etibarlılığı qoruyub saxlamalarını” qeyd edən F.Bodenştedti heyrətləndirən məqam, türk olan qacarların çoxəsrlik qədim bir mədəniyyət və xüsusən də dövlətçilik ənənələri dərin olan nəhəng bir imperiyanı idarə etmək məharətləridir. Konservativ baxışları və eləcə də, XIX əsrin 40-50-ci illərində Avropanı bürüyən inqilablara qarşı neqativ münasibətilə tanınan Bustan Əfəndi açıq şəkildə yazmasa da, o, Qacarların mərkəzləşdirilmiş Şərq dövlət idarəçilik modelini alqışlayırdı. Ümumiyyətlə, XIX əsr kontekstində türk sivilizasiyasının keçdiyi tarixi rolu düzgün qiymətləndirən F.Bodenştedt yazır ki, “Qafqazın bütün bölgələrində məskunlaşan tatarların dilində İslam dinindən qaynaqlanan çoxlu sayda ərəb sözləri vardır... Bu hal fars dili baxımından daha da qabarıqdır... Fars bölgəsinin paytaxtı Təbriz olan Odlar Diyarı (*Feuerland*) adlı Azərbaycan vilayətində... bu iki dil bir-birinə qaynayıb-qarışmışdır. Mirzəmin mənə oxuduğu xalq mahnılarının çoxu... mənşə etibarı ilə Azərbaycandandır” [Bodenstedt, 1888, s.330-331].

F.Bodenştedtin Mirzə Şəfinin ona şeirlərindən oxuduğu şairlərdən bəzilərinin (məsələn Füzuli) türk olduğunu bilməməsi ciddi qəbahət olmasa da, Mirzə Şəfinin irsi eləcə də, şəxsiyyəti ətrafında qaranlıq sualların meydana çıxmasında müstəsna əməyi olan A.Berjenin bu qəbildən olan məsələlərə münasibətdə qəbahəti bağışlanılmaz dərəcədə böyükdür. O, F.Bodenştedtdən dörd il öncə, sonralar bəlli plagiat məsələsini aktual edəcək (daha doğrusu, ilk dəfə bu məsələnin doğuluşuna rəvac verəcək) ziddiyyətli məqaləsində yazır ki, “tanıdığımız İran şairləri (*F.Bodenştedtdən fərqli olaraq şərqşünas A.Berje İran şairi yazsa da, türk və fars şairlərini dəqiq təyin edə bilirdi-Z.R.*) arasında

Mirzə Şəfidən başqa öz ölkəsində az bilindiyi halda, ondan kənarda məşhurlaşan başqa biri bizə məlum deyil" [Berge, 1870, s.425]. Əksər orta əsr İran şairlərinin yaradıcılıqlarına yaxşı bələd olan alman oxucusunda maraq doğurub onu ələ almağı hədəfləyən F.Bodenştedtdən fərqli olaraq, uzun illər (1864-1886) Qafqaz Arxeoqrafiya Komissiyasının sədri olmuş A.Berje Mirzə Şəfini məqsədyönlü şəkildə fars şairi kimi təqdim edirdi. Mirzə Şəfi haqqında onsuz da bir çox hallarda ziddiyyətli olan məlumatları daha da dolaşıq hala salıb həqiqəti əks etdirən məlumatları isə, demək olar ki tam şəkildə saxtalaşdıran A.Berje olmuşdur. O, kiçik bir məqalədə Mirzə Şəfini bilinməz fars şairindən tutmuş, ümumiyyətlə heç vaxt şairliyə iddia etməyən, F.Bodenştedtin nəğmələrinin müəllifi olmayan və Tiflis küçələrini dolaşarkən bir-neçə dəfə rastlaşdığı səmimi bir tatar kimi təsvir etmişdir. F.Bodenştedt 1874-cü ildə özünü nəğmələrin müəllifi elan edən zaman, etiraf təəssüratı bağışlayan dəlillərini bir qədər də qüvvətləndirmək məqsədilə A.Berjenin qeyri-obyektiv məqaləsinə istinad edirdi. O, ziddiyyətli səslənən arqumentlərini daha əsaslı etmək üçün bu kiçik həcmli məqaləni tam şəkildə "Mirzə Şəfinin irsindən"inin izahedici qisminə yerləşdirmişdir. "Şərqdə min bir gün"də poetik çalarlarla təsvir etdiyi əsərin baş qəhrəmanı, bilavasitə tanıdığı müəllimi Mirzə Şəfini "Mirzə Şəfinin irsindən" əsərində A.Berjenin qələmə aldığı bir neçə səhifə əsasında yenidən və bu dəfə A.Berjenin dilindən oxuculara tanıtmağa çalışırdı! Paradoksal səslənsə də, "İrs"in nəşr olunduqdan sonra qəti şəkildə plagiat məsələsini doğuran bəlli qismini mütailə etdikdə, Bustan Əfəndinin məqsədyönlü şəkildə oxucularda Mirzə Şəfini tanımadığı təəssüratı formalaşdırmaq cəhdi də özünü büruzə edir.

Bununla belə, F.Bodenştedt 1874-cü ildə qəlmə aldığı "Mirzə Şəfinin irsindən" əsərində artıq Avropada məşhurlaşmış, oxucuların tanıdığı, nəğmələrini sevdikləri Mirzə Şəfi adından bəhrələnməkdə də davam edirdi. Digər tərəfdən isə, istər Mirzə Şəfi, istərsə də, özünün yaratdğı Mirzə Şəfinin uğurlarına qısqanclıqla yanaşırdı. Buna baxmayaraq həm də, Mirzə Şəfini tamamilə və birmənalı olaraq özünküləşdirməkdən də çəkinirdi. Həmçinin çoxsaylı alman oxucusunun gözündə qazandığı etmadı itirərək tamamilə gözdən düşməkdən də qorxurdu. Qafqazlarda olduğu üç il kimi qısa bir müddət ərzində Şərq mədəniyyətinə və Şərq dillərinə necə bu qədər dərindən bələd olması ətrafında artıq baş qaldırmış şübhələrin gedərək daha da artmasına imkan vermək istəmirdi. Bunun üçün fərqli əsərlərində dəfələrlə Mirzə Şəfinin ona böyük təsirlərinin olduğunu etiraf etməkdən əlavə, nəğmələrin də müəyyən qisminin Vazehə məxsusluğunu etiraf etmək zərurəti meydana çıxırdı. Bu mənada, F.Bodenştedt "Mirzə Şəfinin irsindən" adlı nəğmələr toplusunun izahedici əlavəsində yazır ki, "mən özümün 'Mirzə Şəfinin nəğmələri' əsərinə 'Şərqdə min bir gün' kitabının kontekstində başa

düşüldükdə (*sonuncu əsərdə şeirin tarixçəsini təfərrüatı ilə anladır-Z.R.*) daha effektiv səslənən Mirzə Şəfiyə aid cəmi bir tatarca şeiri əlavə etmişəm...

Molla, şərab təmizdir,
Günahdır onu təhqir etmək...

Mirzə Şəfi bu şeiri qələmi əlimdən alaraq dizləri üstündə, ona məxsus aydın, incə xəttilə özü mənim üçün kağıza köçürdü. Mən bu kağızı hələ də özümdə saxlayıram. Bu balaca şeiri Mirzə Şəfidən əbədi xatirə olaraq qalsın deyə, olduğu kimi tərcümə etmişəm” [Bodenstedt, 1891, s.206-207].

Həqiqəti də axtarsan onda taparsan.
Ayaqlarım məni bilərək məscidə gətirməyib,

Sərxoş idim, yolumu azıb gəlmişəm [Bodenstedt, 1859, s.46], [Bodenstedt, 1873, s.41], [Bodenştedt, 1987, s.13] kimi davam edib tamamlanan Şərq poeziyasında geniş yayılmış bir mövzu eləcə də, almanlara daha öncədən məlum olan Hafiz Şirazinin (eləcə də, Ömər Xəyyamın) ruhu hiss olunan bu şeir, forma və məzmunca “Şərqdə min bir gün” və “Mirzə Şəfinin nəğmələri”ndə əks olunan digər şeirlərdən o qədər də fərqlənmir. Həm də, adı gedən əsərlərdə məzmunca buna bənzər başqa şeirlərə də rast gəlinir. Bütün nəğmələr arasından, təkcə “Molla, şərab təmizdir” misrası ilə başlayan şeirin seçilərək Mirzə Şəfiyə məxsus yeganə şeir kimi təqdim edilməsi o qədər də inandırıcı səslənmir. F.Bodenştedt digər nəğmələrlə müqayisədə orijinala çox yaxın bir formada tərcümə etdiyini iddia edən bu şeiri xüsusi olaraq qeyd etməklə yanaşı, ona tarixçəsinin gerçək və ya uydurma olması bilinməyən, Şərq əhvalatlarına xas izahlar da əlavə edirdi. Mirzə Şəfinin çömbəlmiş şəkildə öz əlilə ona şeir yazmasını qələmə almaqla, məsələyə özünəməxsus drammatizm qataraq bir nəğməni bu qədər xüsusi edib oxucuların diqqətini yayındırmağa və ya bütün diqqəti etiraf etdiyi bu “mühüm həqiqətə” kökləməyə çalışırdı. Adı gedən əsərdə *simulacra* Mirzə Şəfinin fonunda gerçək Mirzə Şəfini reabilitasiya etmə təəssüratı formalaşdırırdı. Gizlədilməsi qəliz olan həqiqətləri görüntülərin kölgəsinə yerləşdirməyə səy göstərirdi. Əslində bu kimi psixoloji manipulyasiyalar vasitəsilə F.Bodenştedt ilk növbədə öz oxucusunu çaşqınlığa salırdı. Psixoloji manipulyasiyaların yaratdığı tərs effekt sayəsində əksinə, oxucunu zaman keçdikcə özündən daha da uzaqlaşdırırdı. Düşünürük ki, aldadılmış alman oxucusunun sonralar da “İrsdən” daha çox, “Nəğmələrə” meyl etməsi, məhz buradan qaynaqlanır. Həssas alman oxucusunun yazarın *u dönüşü* ilə müşayiət olunan fənnlərinə hazır olmaması, daima Mirzə Şəfiyə məxsus olmuş “Mirzə Şəfinin nəğmələri”nə olan sonsuz sevgidə də öz əksini tapırdı.

6.F.Bodenştedtin bənzər plagiat qurbanları

F.Bodenştedtin *inandırmaq istedadına* aldanan bəzi tədqiqatçılar qeyd olunan müəmmalı məsələlərə heç bir tənqidi münasibət sərgiləmədən, onun

fəaliyyəti və əməllərinə haqq qazandırmağa çalışırlar. “F.Bodenştedt tatar dilini öyrənməyə başladı, çünki, bu ölkənin (*ümumilikdə Azərbaycan nəzərdə tutulur-Z.R.*) çoxdilli əhalisilə ünsiyyət üçün ən vacib dil, məhz bu dil idi. Ona müəllimlik edən və xüsusən də, ona köhnə xalq mahnılarının ifasını öyrədən isə, F.Bodenştedtin öz qələmindən çıxan mahnılar toplusunu həsr edərək sonralar adını unudulmaz edəcəyi Mirzə Şəfi olmuşdur” [Kurth-Voigt & McClain, 1977, s.803]. Mirzə Şəfi şeirlərinin nəğmələşməsi və qərblilərdə şeirdən daha çox, məhz nəğmə təəssüratı oyatması da Şərq şeirinin xoş avazı və özünəxas ahəngilə bağlı olmuşdur. Şərq şeirinin qərblilərdə doğurduğu hisslər onların ədəbiyyatdan daha çox, musiqiyə olan yaxınlığı ilə səciyyələnirdi.

Məsələnin maraqlı tərəfi ondadır ki, “Mirzə Şəfinin irsindən” əsərində F.Bodenştedtin etiraflarına istinad edərək Mirzə Şəfinin nəğmələrini birmənalı şəkildə alman tərcüməçinin adına yazan tədqiqatçılar, F.Bodenştedtin Mirzə Şəfidən başqa digər tanınmış şəxslər, xüsusilə F.Bodenştedtin tərcümələrinədək Avropa oxucusuna bilavasitə də yaxşı tanış olan rus şair və yazıçılarına qarşı bənzər formalı (hətta, daha aşkar) plagiat aktına yol verdiyindən xəbərsiz deyildilər. F.Bodenştedtin Mirzə Şəfi ilə oxşar süjet xəttinə malik plagiat qurbanlarından biri də, Avropa oxucusuna yaxşı tanış olan və XIX əsr məşhur rus şairlərindən biri kimi tanınan Mixail Yuryeviç Lermontov (1814-1841) olmuşdur. Bu mənada, rus ictimai xadimi və jurnalist Mixail İvanoviç Semevskinin (1837-1892) 1886-1887-ci illərin qışında Almaniyada F.Bodenştedtdən aldığı müsahibə və daha sonra bu müsahibənin məqalə formasında nəşri böyük maraq kəsb etməkdədir. M.İ.Semevski yazır ki, “cənab Bodenştedtin Lermontovun bilinməyən on yeddi kiçik şeirini tərcümə etməsi də məlumdur. Güya tərcümə etdiyi bu şeirlər ona, Lermontovun qafqazlı bir dostunun vasitəsilə və surətləri üzündən köçürülmüş əl yazısı formasında gəlib çatmışdır. Amma şeirlərin əsllərinin itməsi səbəbindən bu şeirlər Lermontovun bilinən rusca tərcümələrində əks olunmamışdır. Bu cəhətdən, adı gedən şeirlər ilk dəfə almaca F.Bodenştedt tərəfindən nəşr edilmişdir... Cənab Bodenştedtdən Lermontovun həmin şeirlərinin onda olan kağız surətini taparaq bizə göstərməyi xahiş etdikdə, hörmətli tərcüməçi onları axtara bilməyəcəyini söyləyərək bu işdən boyun qaçırdı” [Семевский, 1887, s.420]. Bu məqam yuxarıda qeyd etdiyimiz fərziyyə, yəni, Mirzə Şəfinin F.Bodenştedtə verdiyi müəmmalı dəftərin Şərq nağıllarından ilhamlanaraq uydurma fikir ehtimalının həqiqətə yaxın olma dərəcəsini bir qədər də artırır. Mirzə Şəfi irsini tədqiq edən əksər tədqiqatçıların mövcudluğuna şübhə etmədikləri və plagiat məsələsini onun əsasında izah etməyə çalışdıqları əlyazmanın əslində mövcud olmamasına, M.Y.Lermontovun nümunəsində M.İ.Semevski də böyük ölçüdə aydınlıq

gətirir. O, yazır ki, “Fyodor Fyodoroviç (ruslar cənab Bodenştedtə bu formada xitab edirdilər) bizi bağışlasın, amma Lermontovun rusca olan mətni və ya ən azından bu mətnin surəti tapılmadıqca, şairin qeyd olunan şeirləri ətrafında istər-istəməz şübhəli məqamlar da baş qaldıracaqdır. Belədə, F.Bodenştedtin Lermontovun poeziyasına yaxşı bələd olduğu halda, adı gedən əlyazmadan edilən tərcümələrin əsində böyük alman şairinin özünün orijinal əsərləri olması fikri formalaşacaqdır” [Семевский, 1887, s.420]. M.İ.Semevski elə bil ki, M.Y.Lermontovun nümunəsində Mirzə Şəfinin başına gələn/gətirilən əhvalatı izah edir. İlk öncə tərcüməçi olan F.Bodenştedtin öncədən düşünülmüş ikibaşlı strategiyası ya, faktiki olaraq mövcud əlyazmaları itirmək ya da, qeyri-mövcud olduğu halda onları mövcud kimi uydurmaqdan ibarətdir. Psixoloji manipulyasiya məharətinin nümayişi və emosional imtəhanlarla müşayiət olunan proseslərdə əldə edilən Şərq nəğmələrinin tərcüməsi uğurlu olaraq müəllifə şöhrət gətirməkdən və ya Qərbdə də tanınan daha şöhrətli bir şairin “bilinməyən” şeirlərinin, məhz F.Bodenştedtin əlinə keçməsindən aslı olaraq, əlyazma da uydurulub əbədi olaraq bilinməz qalırdı. Məşhurluğunu həqiqətlərin izini bu qaydada itirməklə təmin edən F.Bodenştedtin, gizli şəkildə ittiham və ya üstüörtülü formada təhdid kimi səslənən suallara öncədən tam hazırlıqlı olması da görünür. M.İ.Semevski yazır ki, müsahibənin sonunda “mən cənab F.Bodenştedtə bildirdikdə ki, bunları ‘Russkaya Starina’ (*Русская старина*) jurnalında dərc etməyi düşünürəm, o, təbəssümlə mənə cavab verdi ki, düşünürəm ki, dərc etdirin. Bu məni qətiyyən narahat etmir. Amma mən sizin arzuladığınız əlyazmanı axtarmağa davam edəcəm” [Семевский, 1887, s.420].

F.Bodenştedtin alman dilinə tərcümə etdiyi daha bir rus klassiki, yazıçı İvan Sergeyeviç Turgenev (1818-1883) olmuşdur. Onun İ.S.Turgenev yaradıcılığı ilə bağlı tərcümələri keyfiyyət baxımından mütəxəssislər tərəfindən yüksək dəyərləndirilsə də, tədqiqatçıların tərcümələrdə diqqət yetirdikləri incə məqamlara da nəzər salmaq vacibdir. “F.Bodenştedtin tərcümələrinin rus mətnlərilə müqayisəsi göstərir ki, o, Turgenevin əsərlərinin milli xüsusiyyətlərini heç bir şəkildə nəzərdən qaçırmayıb. Bu tərcümə təsdiq edir ki, o, yad xalqın ruhunu hiss etmək, rus yazıçısının əsərlərinin mahiyyətini və formasını dərk etməkdə xüsusi istedada malikdir” [Раппих, 1964, s.344]. Düşünürük ki, F.Bodenştedti oxucularının gözündə bilavasitə ifşa olmaqdan xilas edən əsas məqam onun xüsusi istedadı və ya “yad xalqın ruhunu hiss etmək” eləcə də, onu öz oxucusuna hiss etdirmək məharəti olmuşdur. Hətta, Qafqaz və Azərbaycanın nümunəsində Şərq mədəniyyəti kimi tamamilə uzaq mədəniyyəti asanlıqla özünküləşdirməyi bacaran F.Bodenştedt, bu məziyyətindən irəli gələrək həyatda olduğu müddətcə oxucularını da mütəmadi olaraq psixoloji manipulyasiya etməyin öhdəsindən gəlməyə

müvəffəq olmuşdur. F.Bodenştedtin sonrakı illərdə də Şərq mövzusunu davam etdirərək Hafiz və xüsusilə də, Ömər Xəyyamdan etdiyi həcmli tərcümələr, onun Mirzə Şəfi haqqında əvvəlki etirafları və ya psixoloji mənşəyə malik plagiat məsələsində özünü təmizə çıxarmaq məqsədi daşıyan arqumentlərinin inandırıcılığını təməlləndirmişdir. Həyatda olduğu müddətdə plagiat sualı ətrafındakı mübahisələr xeyli səngisə də, onun həyatdan köçməsilə Mirzə Şəfi də tez bir zamanda unudulmuşdur. XX əsrdə Mirzə Şəfinin vətəninə dönüşü ilə, F.Bodenştedt də bir növ onunla birgə doğulmuş və plagiat sualı da yenidən aktuallıq qazanmışdır.

7.Nəticə

Tədqiqatdan gəldiyimiz ümumi nəticə onu deməyə əsas verir ki, Mirzə Şəfinin F.Bodenştedtə hədiyyə etdiyi və sonradan məşhur plagiat məsələsinin doğulmasına rəvac verəcək əlyazmadan ibarət olduğu ehtimal edilən şerlər toplusunun günümüzədək tədqiqatçılar tərəfindən aşkarlanmaması, alman şair-tərcüməçinin Vazehə qarşı yol verdiyi plagiat aktının bilavasitə olması sualını cavabsız qoyur. Bununla belə, F.Bodenştedtin Mirzə Şəfinin poetik və didaktik üslublu fəlsəfi irsindən müəyyən məqamları mənimsəyərək, bilvasitə plagiat aktına yol vermə faktı da şübhəsizdir. Söhbətləri zamanı psixoloji təsirlər vasitəsilə Mirzə Şəfinin üstün intellektual məziyyətlərini istismar edən F.Bodenştedt, onun düşüncə tərzini, şərqsayağı müdrik sözlərini, meyarları XIX əsrin mücərrəd alman fəlsəfəsindən fərqli aydın hikmətini, çox vaxt bədahətən söylənilən təravətli fikirlərindəki mənaları, bəzi şerlər-nəğmələrin Şərq nağıllarını xatırladan maraqlı tarixçələrini özünküləşdirərək plagiata yol vermişdir. XIX əsrdə sanballı tərcümələr əsasında Xəyyam və Hafizin timsalında Şərq poeziyasına yaxından bələd olmuş alman oxucusunda maraq oyatmaq iqtdarında olan Mirzə Şəfinin xarakterini özünə ekstrapolyasiya edərək, bir növ onun kimliyini də mənimsəmişdir. Qərb təbiətilə Vazehin Şərq donuna girərək, özünü onun obrazında təqdim etməyə çalışmışdır. F.Bodenştedt psixoloji manipulyasiyalarla gerçəkləşdirdiyi məramını Mirzə Şəfidən gizlətməyə nail olsa da, bunu çoxsaylı alman oxucusundan sonadək saxlamağa müvəffəq olmamışdır. Baş qəhrəmanının Mirzə Şəfi olduğu eləcə də, parlaq Şərq xatirələrindən ibarət bütün əsərlərində əksini tapdığı kimi, Azərbaycan şairini ustalıqla emosional məngənələrə salaraq, onu digər Şərq şairlərinin irslərindən deyil, nəğmə kimi səslənən öz şerlərindən ona oxumağa təhrik etmişdir. F.Bodenştedt vətəni Almaniyaya döndükdən az sonra davamlı müharibələr və uğursuz inqilablardan yorğun düşmüş alman oxucusuna ilk dəfə Şərq şairi Mirzə Şəfinin şeirlərini təqdim edərək, XIX əsrin 50-ci illərində tərcüməçi qismində böyük uğurlar qazanmışdır. Parlaq Mirzə Şəfi obrazına heyran olaraq ona pərəstiş edən oxucularının gözündə məşhurlaşan F.Bodenştedt, Almaniyanın son dərəcə rəqabətli elmi mühitində özünə üstün

yer etməyə nail omuşdur. “Şərqdə min bir gün” adlı xatirələr kitabında Mirzə Şəfini oxuculara təqdim etdikdən bir il sonra, XIX əsrin əvvəllərində Götenin “Qərb Şərq Divanı”nın qazandığı uğurdan da ruhlanan F.Bodenştedt, öncəki əsərindən “Mirzə Şəfinin nəğmələri”ni ayırıb xüsusi kitab halında nəşr etdirərək Mirzə Şəfini Qərbdə, əsasən də Almaniyada dillər əzbəri etmişdir. Mirzə Şəfinin nəğmələrilə inanılmaz sürətlə məşhurlaşdıqdan sonra, bu məşhurluğa sahib çıxmaq üçün, XIX əsrin 70-ci illərində özü də mirzəşəfiləşərək, bu dəfə “Mirzə Şəfinin irsindən” əsərində bütün öncəki şerlər-nəğmələrin də müəllifi kimi, məhz özünü təqdim etmişdir. O, ilkin məqsədinə gözlədiyindən də artıq dərəcədə nail olub, dövrü üçün qazanılan misli görünməmiş uğurlardan sonra, artıq Mirzə Şəfini qısqanmağa başlamışdır. Amma, Mirzə Şəfini təxəllüs özünü isə, Mirzə Şəfi etməklə onu unutdurub özü məşhurlaşmağa çalışdığı halda, XIX əsrin sonlarından etibarən özü də unudulmuşdur. XIX əsrin 50-ci illərində keşməkeşli tarixi-siyasi hadisələrdən yorğun düşməsinə baxmayaraq, Kant ənənələrinə sadiq qalıb tənqidi ruhunu qoruyub saxlayan alman elmi ictimaiyyəti, öncə F.Bodenştedtə inandığı halda, getdikcə bu inam xeyli dərəcədə sarsılmışdır. F.Bodenştedt Mirzə Şəfinin adından istifadə edərək vətənində mütəmadi artan oxucu kütləsi qazanmağı hədəfləsə də, Mirzə Şəfi irsinə qarşı bilvasitə plagiata yol verməklə, ilk öncə öz oxucusunu aldadıb tədricən bu geniş kütlənin itirilməsini də birbaşa olaraq öz fəaliyyətilə özü təşviq etmişdir. İlk öncə artmaqda olan əsaslı şübhələr, daha sonra isə, Almaniyadakı siyasi proseslərin gedişində sürətlə dəyişən estetik zövqlər, XIX əsrin 50-ci illərində inanılmaz dərəcədə yüksək ədəbi zirvələr fəth edən Mirzə Şəfi nəğmələrinə marağı azaltmışdır. F.Bodenştedtlə Avropada məşhurlaşan Mirzə Şəfi, F.Bodenştedtin ölümündən bir qədər sonra Avropanı tərk edib öz məşhurluğunu, artıq vətəni Azərbaycanda davam etdirmişdir.

ƏDƏBİYYAT

1. Anushiravani, A., & Atashi, L. (2012). Cultural translation: A critical analysis of William Jones’s translation of Hafez. *Persian Literary Studies Journal (PLSJ), 1*(1), 41–58.
2. Arzumanlı, V. (2005). *Mirzəşəfişünaslıqda yeni mərhələ*. Bakı: Qartal.
3. Bayramov, A. (1987). *Mirzə Şəfi Vazeh: Biblioqrafiya* (Tərtib edən H. A. Zeynalova, redaktor Q. R. Süleymanzadə). Bakı: Yazıçı.
4. Berge, von A. (1870). Mirsa Schaffi. *Zeitschrift der Deutschen Morgenländischen Gesellschaft*, *XXIV*, 425–432. Leipzig: F. A. Brockhaus.
5. Bodenstedt, F. (1851). *The morning-land: Or, a thousand and one days in the East* (Vol. 1). Translated by R. Waddington. London: Richard Bentley.

6. Bodenştedt, F. (1987). *Mirzə Şəfi haqqında xatirələr* ("Şərqdə min bir gün" kitabından). Translated by A. Bayramov. Bakı: Yazıçı.
7. Bodenstedt, von F. (1848). *Die völker des Kaukasus und ihre freiheitskämpfe gegen die Russen: Ein beitrag zur neuesten geschichte des Orients*. Frankfurt am Main: Hermann Johann Keßler.
8. Bodenstedt, von F. (1859). *Tausend und ein Tag im Orient*. Berlin: Verlag der königlichen Geheimen Ober-Hofbuchdruckerei (R. v. Decker).
9. Bodenstedt, von F. (1873). *Die Lieder des Mirza-Schaffy*. Berlin: Verlag der königlichen Geheimen Ober-Hofbuchdruckerei (R. v. Decker).
10. Bodenstedt, von F. (1882). *Aus Morgenland und Abendland: Neue Gedichte und Sprüche*. Leipzig: F. A. Brockhaus.
11. Bodenstedt, von F. (1888). *Erinnerungen aus meinem Leben*. Berlin: Allgemimer Verein für Deutsche Litteratur.
12. Bodenstedt, von F. (1890). *Erinnerungen aus meinem Leben*. Berlin: Allgemimer Verein für Deutsche Litteratur.
13. Bodenstedt, von F. (1891). *Aus dem Nachlasse des Mirza-Schaffy*. Leipzig: F. A. Brockhaus.
14. Brugsch, H. (1862). *Reise der K. preussischen Gesandtschaft nach Persien 1860 und 1861*. Leipzig: Hinrichs'sche Buchhandlung.
15. Bürgel, J. C. (2004). Friedrich (von) Bodenstedt, a German orientalist of the 19th century, and his *Lieder des Mirza Schaffy*. Paper presented at the *International Conference on the Study of Persian Culture in the West*, State Hermitage, St. Petersburg, pp. 1–13. Retrieved from http://archivindomed.altervista.org/bodenburgel.pdf
16. Gould, R. R. (2018). Memorializing Akhundzadeh: Contradictory cosmopolitanism and post-Soviet narcissism in Old Tbilisi. *Interventions: International Journal of Postcolonial Studies*, *20*(4), 1–22.
17. İbn Arabi. (2013). *Arzuların Tercümanı (Tercümanü'l-eşvak)*. İstanbul: İz Yayıncılık.
18. Köçərli, F. (1962). Mirzə Fətəli Axundov (1811–1878). In *Mirzə Fətəli Axundov (məqalələr məcmuəsi)*. Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, pp. 21–45.
19. Kurth-Voigt, L. E., & McClain, W. H. (1977). Friedrich von Bodenstedts Briefe an Hermann Costenoble. *Archiv für Geschichte des Buchwesens, 18,* 799–962.
20. Маковельский, А. О. (1955). К вопросу о мировоззрении Мирза Шафи. *Труды института истории и философии*, *VII*. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 192–212.
21. Mümtaz, S. (2005). *Mirzə Şəfi Vazeh*. Bakı: Nurlan.

22. Рафили, М. (1958). *Мирза Шафи в мировой литературе (К вопросу о литературном наследии Мирза Шафи и плагиате Фридриха Боденштедта)*. Баку: Азернешр.
23. Раппих, Х. (1964). Тургенев и Боденштедт. Перевод с немецкого Л. М. Бродской. *Литературное наследство*, *73*(2), 333–354.
24. Сеид-заде, А. А. (1940). Мирза-Шафи или Боденштедт? (К вопросу о происхождении, объеме и характере плагиаторства Фр. Боденштедта). Баку: АГУ.
25. Сеид-заде, А.-А. (1969). *Мирза-Шафи Садык-оглы Вазех*. Баку: Азербайджанское государственное издательство.
26. Семевский, М. И. (1887). Воспоминания Фридриха Боденштедта, 1841–1887. *Русская старина*, *54*, 409–422. Санкт-Петербург.
27. Шиллер, Ф. П. (1934). *Поэзия германской революции 1848 года: Историко-литературный очерк*. Москва: Государственное издательство художественной литературы.
28. Vazeh, M. Ş. (1961). *Nəğmələr* (A. Aslanov, Trans.). Bakı: Uşaqgəncnəşr.
29. Yadigar, F. (2010). *Mirzə Şəfi Vazeh və Bodenstedt: yozmalar və faktlar*. Bakı: Təhsil NPM.
30. Ениколопов, И. К. (1938). *Поэт Мирза-Шафи*. Баку: Издательство Азербайджанского филиала Академии наук СССР.
31. Ениколопов, И. К. (1975). *Современники о Бакиханове*. Баку: Элм.

REFERENCES

1. Anushiravani, A., & Atashi, L. (2012). Cultural translation: A critical analysis of William Jones’s translation of Hafez. *Persian Literary Studies Journal (PLSJ)*, 1(1), 41–58. (In English)
2. Arzumanli, V. (2005). *A new stage in the study of Mirza Shafi*. Baku: Qartal. (In Azerbaijani)
3. Bayramov, A. (1987). *Mirza Shafi Vazeh: Bibliography* (Compiled by H. A. Zeynalova, Edited by Q. R. Suleyman-zade). Baku: Yazichi. (In Azerbaijani)
4. Berge, von A. (1870). Mirza Schaffi. *Zeitschrift der Deutschen Morgenländischen Gesellschaft*, XXIV, 425–432. Leipzig: F. A. Brockhaus. (In German)
5. Bodenstedt, F. (1851). *The morning-land: Or, a thousand and one days in the East* (Vol. 1). Translated by R. Waddington. London: Richard Bentley. (In English)
6. Bodenstedt, F. (1987). *Memories about Mirza Shafi* (from "One Thousand and One Days in the East"). Translated by A. Bayramov. Baku: Yazichi. (In Azerbaijani)

7. Bodenstedt, von F. (1848). *The peoples of the Caucasus and their struggles for freedom against the Russians: A contribution to the latest history of the East*. Frankfurt am Main: Hermann Johann Kessler. (In German)
8. Bodenstedt, von F. (1859). *A thousand and one days in the Orient*. Berlin: Verlag der Königlichen Geheimen Ober-Hofbuchdruckerei (R. v. Decker). (In German)
9. Bodenstedt, von F. (1873). *The Songs of Mirza-Schaffy*. Berlin: Verlag der Königlichen Geheimen Ober-Hofbuchdruckerei (R. v. Decker). (In German)
10. Bodenstedt, von F. (1882). *From the East and the West: New poems and sayings*. Leipzig: F. A. Brockhaus. (In German)
11. Bodenstedt, von F. (1888). *Memories from my life*. Berlin: General Association for German Literature. (In German)
12. Bodenstedt, von F. (1890). *Memories from my life*. Berlin: General Association for German Literature. (In German)
13. Bodenstedt, von F. (1891). *From the legacy of Mirza-Schaffy*. Leipzig: F. A. Brockhaus. (In German)
14. Brugsch, H. (1862). *Journey of the Royal Prussian Embassy to Persia, 1860 and 1861*. Leipzig: Hinrichs'sche Buchhandlung. (In German)
15. Bürgel, J. C. (2004). Friedrich (von) Bodenstedt, a German orientalist of the 19th century, and his *Songs of Mirza Schaffy*. Paper presented at the *International Conference on the Study of Persian Culture in the West*, State Hermitage, St. Petersburg, pp. 1–13. Retrieved from http://archivindomed.altervista.org/bodenburgel.pdf (In English)
16. Gould, R. R. (2018). Memorializing Akhundzadeh: Contradictory cosmopolitanism and post-Soviet narcissism in Old Tbilisi. *Interventions: International Journal of Postcolonial Studies, 20*(4), 1–22. (In English)
17. Ibn Arabi. (2013). *The Interpreter of Desires* (*Tarjuman al-Ashwaq*). Istanbul: Iz Publications. (In Turkish)
18. Kocharli, F. (1962). *Mirza Fatali Akhundov (1811–1878).* In *Mirza Fatali Akhundov (Collection of Articles)*, pp. 21–45. Baku: Azerbaijan SSR Academy of Sciences Publishing. (In Azerbaijani)
19. Kurth-Voigt, L. E., & McClain, W. H. (1977). Friedrich von Bodenstedt's letters to Hermann Costenoble. *Archiv für Geschichte des Buchwesens*, 18, 799–962. (In German)
20. Makovelsky, A. O. (1955). On the worldview of Mirza Shafi. *Proceedings of the Institute of History and Philosophy*, *VII*, 192–212. Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR. (In Russian)
21. Mumtaz, S. (2005). *Mirza Shafi Vazeh*. Baku: Nurlan. (In Azerbaijani)

22. Rafili, M. (1958). *Mirza Shafi in World Literature (On the Literary Legacy of Mirza Shafi and Friedrich Bodenstedt's Plagiarism)*. Baku: Azerneshr. (In Russian)
23. Rappich, H. (1964). Turgenev and Bodenstedt. Translated from German by L. M. Brodskaya. *Literary Heritage, 73*(2), 333–354. (In Russian)
24. Seyidzade, A. A. (1940). Mirza Shafi or Bodenstedt? (On the origin, scope, and character of Friedrich Bodenstedt's plagiarism). Baku: AGU. (In Russian)
25. Seyidzade, A.-A. (1969). *Mirza Shafi Sadyk-ogly Vazeh*. Baku: Azerbaijan State Publishing. (In Russian)
26. Semevsky, M. I. (1887). Memories of Friedrich Bodenstedt, 1841–1887. *Russian Antiquity*, 54, 409–422. St. Petersburg. (In Russian)
27. Schiller, F. P. (1934). *The Poetry of the German Revolution of 1848: A Historical and Literary Essay*. Moscow: State Publishing House for Fiction. (In Russian)
28. Vazeh, M. Sh. (1961). *Songs* (Trans. by A. Aslanov). Baku: Ushaggenchnashr. (In Azerbaijani)
29. Yadigar, F. (2010). *Mirza Shafi Vazeh and Bodenstedt: Interpretations and Facts*. Baku: Tahsil NPM. (In Azerbaijani)
30. Yenikolopov, I. K. (1938). *The Poet Mirza Shafi*. Baku: Publishing House of the Azerbaijani Branch of the USSR Academy of Sciences. (In Russian)
31. Yenikolopov, I. K. (1975). *Contemporaries on Bakikhanov*. Baku: Elm. (In Russian)